YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22 sentyabr 2023-cü il Cümə № 169 (8305) Qiyməti 60 qəpik

Xəbər

Gəlirlər də, xərclər də azalacaq - yeni büdcə

yazısı səh.14-də

Gündəm

Kremlin anonsu: sülhməramlıların sayı artırıla bilər

Rusiya prezidentinin sözçüsünə verilən sual təsadüfdürmü?

yazısı səh.5-də

Prezidentin xalqa müraciətində dörd mühüm mesaj
yazısı səh.6-da

23 saat 43 dəqiqənin sınağından çıxanlar və çıxmayanlar...
yazısı səh.7-də

Nazir generalı işdən çıxardı
yazısı səh.2-də

Qarabağdakı xunta rejimi silahsız qaldı, indi sıra onlarda!
yazısı səh.5-də

Qərb Paşinyanın hakimiyyətdə qalmasını istəyir
yazısı səh.8-də

XIII əsrdə Zəngəzurda erməni..?
yazısı səh.10-da

Bakıda daha bir mühüm tədbir
yazısı səh.11-də

Bişkek atəşkəsindən Yevlağadək - müharibə tarixi
yazısı səh.13-də

Rusiya BMT Təhlükəsizlik Şurasında öz yerini itirə bilər?
yazısı səh.4-də

Universitetlərin akkreditasiyası - formal təsdiqləmə, yoxsa...
yazısı səh.15-də

"QOŞUNLA YEVLAĞA KİMİ GƏLƏCƏYİK" DEMİŞDİLƏR - AMMA İNDİ BELƏ GƏLDİLƏR!

Erməni nümayəndələri ilə görüşün ilkin nəticələri açıqlandı - ermənilər yanacaq və ərzaq istəyiblər; Azərbaycan dövləti verdiyi sözə sadiqdir, bəs qarşı tərəf?

yazısı səh.9-da

Referendum olmayacaq, deputat yeri artmayacaq

Növbəti parlament seçkiləri qarışıq sistemlə keçirilə bilər?

yazısı səh.12-də

Eldar Əzizov

Uşaq evlərinə nəzarət Bakı merindən alındı

yazısı səh.3-də

Şoyqudan təhlükəli bəyanat: "Qarabağ İranla qonşudur..."

yazısı səh.4-də



"Buna görə Putin Qarabağdakı antiterrora qarşı çıxmadı..."

yazısı səh.13-də

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Prezidentin rəsmi saytına kiberhücum olub



Yaşar Gülerdən Zakir Həsənova təbrik

Sentyabrın 21-də Türkiyənin milli müdafiə naziri Yaşar Güler Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənova zəng edib. Y.Güler antiterror tədbirlərinin uğurla başa çatması münasibətilə Azərbaycanın müdafiə nazirini təbrik edib, Türkiyənin hər zaman olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu qeyd edib. Türkiyə milli müdafiə naziri şəhid olan hərbi qulluqçularımıza rəhmət diləyib, onların ailələrinə dərin hüznlə başsağlığı verib və bütün yaralılara Allahdan şəfa diləyib.

General-polkovnik Z.Həsənov Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri zamanı qısa müddət ərzində bütün istiqamətlər üzrə əldə edilən hərbi uğurlardan danışıb. Müdafiə naziri antiterror tədbirləri zamanı hərbçilərimizin qəhrəmanlıq, şücaət və peşəkarlığının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

İran Azərbaycana uçuş qadağasını ləğv etdi

İran Azərbaycan və Ermənistana uçuşlara qoyduğu qadağanı ləğv edib. İranın İSNA agentliyinin verdiyi məlumata görə, Mülki Aviasiya Təşkilatı uçuşların ləğvi barədə tövsiyələr verib.

Qadağa müddətində ləğv edilən reyslərə gəlincə, Mülki Aviasiya Təşkilatının nümayəndəsi əmin edib ki, onlar sərnişinlərin hüquqlarının müdafiəsi qaydalarına uyğun həyata keçiriləcək.

Aİ-nin xüsusi nümayəndəsi yenə gəlir

Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar regiona səfər edəcək. Bu barədə Aİ-nin Ali Nümayəndəsi Josep Borrel X hesabında məlumat verib.

O bildirib ki, Qarabağdakı vəziyyəti nəzərə alaraq, Aİ-nin xüsusi nümayəndəsi Toivo Klaarı regiona göndərmək qərarına gəlib.

"O, vəziyyət barədə bizi məlumatlandıracaq", - Borrel qeyd edib.

Qızıl və gümüş sürətlə ucuzlaşır

Qızıl və gümüş dünya bazarında sürətlə ucuzlaşır. İqtisadçılar bu barədə mülahizələr səsləndirsələr də konkret səbəb barədə danışmırlar. Artıq Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 1.02% azalaraq, 1,947.00 ABŞ dollarına bərabər olub. COMEX-də gümüşün bir unsiyasının qiyməti isə 1.70% azalaraq, 23.43 dollar təşkil edib.

Xankəndinin kənarında nə baş verib?

Sentyabrın 21-də günorta saatlarında erməni Teleqram kanalları Xankəndi və onun ətrafında atışma barədə məlumat verməyə başlayıb. Sonradan xəbərlər yayılıb ki, separatçıların müəyyən hərbi hissəsi tərk-silah edilməkdən imtina edib və azərbaycanlılarla döyüşür.

Bir müddət sonra erməni mənbələri Azərbaycan Silahlı Qüvvələrinin "əhalini içəri buraxmamaq üçün şəhərin ətrafına beton hasarlar çəkdirdiyini" bildirdilər. Eyni zamanda Azərbaycana qarşı atəşkəs razılaşmasını pozmaqda və Xankəndi kənarında atışmada ittihamlar səsləndirilib.

Eyni zamanda Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın sosial şəbəkələrdə Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi istiqamətində hücuma keçməsi ilə bağlı yayılan xəbərləri təkzib edib. "Bu xəbərlər tamamilə yalandır və dezinformasiya məqsədi daşıyır", - mesajda deyilib.

Azərbaycan ərazisində antiterror tədbirlərinə başlayandan bəri bir sıra dövlət qurumlarına kiberhücumlar olub. Bu barədə Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) idarə rəisi Tural Məmmədov Beynəlxalq Kibertəhlükəsizlik Günləri Konfransında (İCSD 2023) bildirib.

"Təkcə Prezidentin rəsmi saytına saniyədə 4 milyondan çox DDoS (Denial-Of-Service Attack) hücum qeydə alınıb", - T.Məmmədov qeyd edib.

Onun sözlərinə görə, XRİTDX-nin mütəxəssisləri onların qarşısını alır: "Bu istiqamətdə fəaliyyətimizi gücləndirilimiş rejimdə davam etdiririk".

Xatırladaq ki, Azərbaycanın sentyabrın 19-20-si tarixlərində keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri təslim olub. Razılaşmaya əsasən, Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

Ermənistana casusluq etmiş şəxsin məhkəməsi başladı

Bakı Apelyasiya Məhkəməsində dövlətə xəyanətdə təqsirləndirilən Hacı Paşayevin barəsindəki hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə iclası başlayıb.

Hakim İlqar Murquzovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin növbəti iclası oktyabrın 4-nə təyin edilib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü o, 17 il müddətinə azadlıqdan məhrum edilib.

İttihama görə, H.Paşayev Ermənistan xüsusi xidmət orqanlarına casusluqda ittiham olunur.

Onun barəsində Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət), 281-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283-cü maddəsi ilə (milli, irqi və dini ədavətin qızışdırılması) maddələri ilə ittiham elan olunub.

H.Paşayevi bir müddət əvvəl Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həbs edib.

Türkiyə antiterror tədbirlərində iştirak etməyib

"Qarabağ Azərbaycan torpağıdır, hansısa status qəbuledilməzdir". Modern.az xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin yaydığı açıqlamada qeyd olunub.

Bildirilib ki, Azərbaycan antiterror tədbirlərini özü keçirib: "Azərbaycanlı qardaşlarımızın haqlı mübarizələrində yanında olmağa davam edəcəyik. Qarabağ Azərbaycan torpağıdır. Bundan başqa, hansısa status qəbuledilməzdir. Erməni silahlı birləşmələrinin uzun müddətdir davam edən təxribatlarına cavab olaraq Qarabağda həyata keçirilən tədbirləri, atəşkəs qərarını və bölgədəki son durumu izləyirik".

Eyni zamanda vurğulanıb ki, Türkiyə Silahlı Qüvvələri Azərbaycanın keçirdiyi antiterror tədbirlərində heç bir şəkildə iştirak etməyib.

Aİ Ermənistandakı patrullarını gücləndirib

Avropa İttifaqının (Aİ) Ermənistandakı Monitorinq Missiyası hər hansı hərbi hadisələr barədə yerindəcə məlumat vermək üçün Azərbaycanla sərhəddə, xüsusən də Zod kəndi ərazisində patrulları gücləndirib.

Bu barədə Aİ missiyası Tvitter mikrobloqunda məlumat yayıb.

"Biz mandata sadiqliyimizi və vəziyyətin sabitləşməsinə kömək etmək öhdəliyimizi bir daha təsdiqləyirik", - məlumatda deyilir.

Nazir generalı işdən çıxardı

Penitensiar Xidmətin rəis müavini general-mayor Məhərrəm Qafarov vəzifəsindən azad olunub. "Qafqazinfo"ya istinadən xəbər verir ki, bu barədə ədliyyə naziri Fikrət Məmmədov əmr imzalayıb.

Nazirin digər əmri ilə polkovnik Nofəl Əsədov xidmət rəisinin müavini təyin edilib.

Avropa Məhkəməsindən Qubad İbadoğlu qərarı

Avropa İnsan Hüquqları Məhkəməsi sentyabrın 20-də məhbus iqtisadçı, Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu ilə bağlı qərar çıxarıb. Qərara görə, Azərbaycan dövləti Qubad İbadoğlunun xəstəxanaya köçürülməsi, müayinə və müalicəsi məsələlərini həll edib məhkəməni mütəmadi məlumatlandırmalıdır.

Qubad İbadoğlunun müraciətlərinə Avropa Məhkəməsinin prioritet qaydada (növbədənkənar) baxacağı da bəyan olunub.

Qubad İbadoğlunu 2023-cü il iyulun 23-də Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tutub. Onun Türkiyədə terrorçu şəbəkə sayılan FETÖ ilə əlaqədə olduğu iddia edilir. İstintaq mütəşəkkil dəstənin saxta xarici valyuta hazırlaması, əldə etməsi, satması ittihamı ilə başlayıb, avqustun 25-də işə dini ekstremist materialları hazırlama, saxlama və ya yayma ittihamı da əlavə olunub.

Arutyunyan Yevlağa niyə gəlmədi?

Ermənilərin qondarma "dövlət naziri" Artur Arutyunyanın Yevlağa gəlməməsinin səbəbi məlum olub.

Bu barədə Ermənistanın "Hraparak" qəzeti məlumat yayıb.

Nəşrin məlumatına görə, ilkin olaraq Araik Arutyunyanın əmisi oğlu, qondarma "dövlət naziri" Artur Arutyunyanın danışıqlar aparan şəxs təyin edilməsinə qərar verilib. Lakin Azərbaycan tərəfi saxta "məmur"la görüşməkdən imtina edib. Bu səbəbdən Arutyunyan Yevlağa gələ bilməyib.

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Uşaq evlərinə nəzarət Bakı merindən alındı

Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin adı büdcədən ayrılan vəsaitlərin mənimsənilməsində hallanırdı

Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi Prezident İlham Əliyevin fərmanı ilə ləğv edilib. Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) tabeliyində Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi 2012-ci ilin dekabrında yaradılıb. Qərara görə, idarənin 141 işçisi vardı.

Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsindən ciddi narazılıqlar olması ilə bağlı internet resurslarında kifayət qədər məlumatlar var. Hesablama Palatası da dəfələrlə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin mənimsənilməsi faktlarını üzə çıxarıb. Məsələn, 2021-ci ildə 2 milyon manat yeyinti aşkarlanmışdı.

Bakı şəhərindəki məktəbəqədər təhsil müəssisələrinin ərzaq təminatını həyata keçirən bəzi qurumlar tərəfindən paytaxtın bir sıra uşaq bağçalarına standartlara uyğun olmayan ərzaq verilməsi haqda faktlar olub.

2021-ci ildə Prezident İlham Əliyev dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında sərəncam imzalayıb. Dövlət məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi, uşaqların məktəbəqədər təhsillə əhatə dairəsinin genişləndirilməsi və məktəbəqədər təhsilin keyfiyyətinin artırılması məqsədilə yerli icra hakimiyyəti orqanlarının (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyətinin, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyətinin) tabeliyində olan dövlət məktəbəqədər təhsil müəssisələri (uşaq evləri istisna olmaqla) Təhsil Nazirliyinin (indi Elm və Təhsil Nazirliyi adlanır) tabeliyinə verilib. Bu qərardan sonra isə Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində 3 uşaq evi qalmışdı. İndi idarənin birdəfəlik ləğvi uşaq evlərinin kimin tabeliyində qalacağı sualını yaradır.

Bəs bu qurum özünü niyə doğrultmadı?

Mövzu ilə bağlı təhsil eksperti Elşən Qafarov "Yeni Müsavat"a danışıb: "Bir daha xatırladım ki, ölkə prezidentinin 2021-ci ilin dekabrında imzaladığı sərəncama əsasən, dövlət məktəbəqədər təhsil müəssisələri yerli icra hakimiyyəti orqanlarından alınaraq, Elm və Təhsil Nazirliyinin idarəetməsinə, onların balansına verilmişdi. Beləliklə, artıq 2022-ci ilin yanvarından həmin təhsil müəssisələri Elm və Təhsil Nazirliyi tərəfindən idarə olunur. Ötən müddət ərzində yerli icra hakimiyyəti orqanlarının məktəbəqədər təhsil müəssisələrinə hansısa müdaxiləsi qanuna görə uyğun deyil. Böyük olduğuna görə təkcə Bakı Şəhər İcra Hakimiyyəti yanında Məktəbəqədər Təhsil Müəssisləri və Uşaq Evləri İdarəsi var idi. Nəzərə alsaq ki, uşaq evləri hələ də icra hakimiyyəti orqanlarının səlahiyyətində, yəni tabeliyindədir və həmin idarə artıq bir ildən artıqdır ki, tabeliyində olan təhsil müəssisələri olmadığına və fəaliyyət göstərmədiyinə görə doğru olaraq ləğv edildi. Yəni qurumun ləğv olma səbəbi budur, burada özünü doğrultmaq məsələsi yoxdur".



Təhsil eksperti Elçin Murad qeyd edib ki,Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi istər icra hakimiyyətinin, istərsə də Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməklə hər dəfə eyni sual, eyni problemlə rastlaşırıq: "Burada əsas məsələ nəzarətsizlikdir. Yəni hər hansı quruma iş tapşırılanda sonradan onun fəaliyyətinə nəzarət edilmir. Məsələn, 2021-ci ildə 2 milyon manat yeyintinin aşkarlanması buna sübutdur. Valideynlərlə görüşümüz zamanı bildirirdilər ki, övladları məktəbəqədər müəssisələrə gedəndə orada dərs müddətində hansısa hərf öyrənmək, xətt çəkmək və sairə tədris qabiliyyətlərini qavramaq əvəzinə onlara dərsdənkənar oyunlar keçirilir. Halbuki həmin uşaqlar birinci sinfə hazırlanmalı idi ki, dərsə başlayanda müəyyən qədər hazırlıqlı olsunlar. Valideynlər də haqlı şəkildə şikayət edirdilər ki, müəyyən hazırlıq üçün övladlarını məktəblərdə ibtidai siniflərə dərs keçən müəllimlərin yanına hazırlığa qoymaq məcburiyyətində qalırlar. Bu da valideyn üçün əlavə xərc deməkdir. Halbuki məktəbəqədər hazırlıqlar qaydasında, doğru-dürüst fəaliyyət göstərsə idi, buna ehtiyac qalmazdı.

Uşaq evlərinə gəldikdə, dəfələrlə sosial mediada, mətbuatda bağçalarda, uşaq evlərində uşaqların qidadan zəhərləndiyi haqda məlumatlara rast gəlmişik. Həmçinin uşaqlarla davranışlarda, rəftarda, nəzarətdə son dərəcə problemli vəziyyət idi. Oradakı məsul şəxslərin, müəllimlərin, bağça işçilərinin uşaqlarla kobud rəftarını, hətta güc tətbiq etdiklərini görürdük. Bütün bunların hamısı Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin ləğv olunmasına gətirib çıxartdı.

Fikrimcə, nazirlik bu cür məsələlərlə bağlı ölçü götürməli, hər bir qurumda ona bağlı bir nümayəndə yaratmalıdır ki, bu proseslərə nəzarət edilsin. Məsələn, məktəblərə "məktəblinin dostu" deyilən nümayəndələr qoyulub. Bu çox yaxşı haldır. İstər şagird, valideyn, müəllim, məktəb direktoru "məktəblinin dostu"nu görəndə özünü "yığışdırır". Çünki bilir ki, hansısa neqativ halla bağlı Təhsil Nazirliyinə məlumat gedəcək.

Bağçalarda, uşaq evlərində, hətta məktəbəqədər hazırlıq sistemi olan yerlədə də bu cür nümayəndə olsaydı, Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi ləğv olunmazdı. Yəni hər problemin səbəbini nazirliyin və yaxud bu quruma rəhbərlik edən şəxslərin işinin layiqincə görmədiyi qənaətindəyəm".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

Rauf Arifoğlunu həbs etdirmək istəyən Hacı Salayevin arzusu gözündə qaldı - məhkəmə

Sentyabrın 21-də Xətai Rayon Məhkəməsində hakim Fuad Axundovun sədrliyi ilə eks-deputat Hacı Salayevin "Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğluna qarşı xüsusi ittiham qaydasında şikayəti üzrə məhkəməyə hazırlıq iclası keçirilib. İclasda iki nümayəndəsi ilə bərabər xüsusi ittihamçı Hacı Salayev də iştirak edib.

Hakim iclasda media nümayəndələrinin foto-videoçəkiliş aparmalarına icazə verməyib. Hacı Salayevin nümayəndəsi xüsusi ittihamı müdafiə edib. Eks-deputatın özü də xüsusi ittihamı müdafiə edib, belə bir ittihamla çıxış etməsinin səbəbini bioqrafiyası ilə əlaqələndirib. Rəsmən milyonçu olduğunu deyən xüsusi ittihamçı, barəsində əvvəllər də mətbuatda yazılar dərc olunduğunu gizlətməyib.

"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlunun nümayəndəsi Elçin Sadıqov isə məhkəmənin diqqətinə çatdırıb ki, əvvəllər mətbuatda dərc olunan və təkzib olunmayan yazılara görə xüsusi ittiham qaydasında şikayət vermə əsassızdır. Nümayəndə xahiş edib ki, Hacı Salayevin xüsusi ittiham qaydasında məhkəməyə təqdim etdiyi şikayət icraata qəbul olunmasın. Bundan sonra məhkəmə müşavirəyə yollanıb.

Fasilə zamanı Hacı Salayev mətbuatda barəsində yazılanları xatırlamaqla milyonçu olduğunu, 3 "Zuzu" kimisinə maşın ala biləcəyini də dilə gətirib.

Hakim az sonra müşavirədən qayıdaraq Hacı Salayevin xüsusi ittiham qaydasında verdiyi şikayətin icraata qəbul olunmasından imtina edildiyini açıqlayıb.

İclasdan sonra "Yeni Müsavat"ın əməkdaşına açıqlama verən Hacı Salayev qərardan apelyasiya şikayəti verəcəyini bildirib.

Xatırladaq ki, Hacı Salayev "Yeni Müsavat" qəzetinə qarşı Nizami Rayon Məhkəməsinə də şikayət təqdim edib. Eks-deputat qəzetdə dərc olunan yazıların onun şərəf və ləyaqətini alçaltdığını iddia edərək media subyektinə qarşı öz arşınına uyğun təzminat tələb edib. Şikayətində Hacı Salayev "Yeni Müsavat"a qarşı 1 milyon manat təzminat tələbi irəli sürüb! Daha sonra bu təzminatı daha 300 min də artırıb.

Eks-deputatın arşını da, iştahası da pis deyil.

Amma bir məsələni də Azərbaycanda milyonlar sahibinə çevrilən, milyonlarını da xaricə daşıyan Hacı Salayevin diqqətinə çatdıraq. "Yeni Müsavat"a qarşı milyonluq tələblərlə hazırda həbsdə olan "Baku Steel Company" MMC-nin (poladəritmə zavodu) Müşahidə Şurasının keçmiş sədri Rasim Məmmədov, başının dəstəsi - 9 generalla bərabər eks-müdafiə naziri Səfər Əbiyev, keçmiş nəqliyyat naziri Ziya Məmmədov, sabiq PA rəhbəri Ramiz Mehdiyev, onlardan əvvəl mərhum akademik Cəlal Əliyev çıxış etmişdilər. Hətta zamanında məhkəmələr onların istəyinə uyğun qərarlar vermişdi. Amma bu adamlar milyon əvəzinə nə aldılar? Azərbaycan cəmiyyətinin sərt təpkisini. Yemədilər və getdilər. İndi də çoxlarının getdiyi bu yola Hacı Salayev çıxıb və milyonluq iddia qaldırıb, milyonları ilə qürrələnir. Uğursuz olduğunu bəri başdan bildiyi yolda ona heç uğur arzulamırıq.

Məsələ ilə bağlı "Yeni Müsavat"ın müxbirinə danışan Rauf Arifoğlu isə bildirdi ki, hazırda o, Qarabağda yaranan situasiya ilə bağlı olaraq, Azərbaycanın gündəmi ilə məşguldur. Onun Hacı Salayev kimi sözün bütün mənalarında "siyasi avara"ya baş qoşmağa vaxtı yoxdur.

❑ **Xalidə GƏRAY,**
Musavat.com

İlham Əliyev Putinlə telefonla danışdı

Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya lideri Vladimir Putin arasında telefon danışığı olub.

Bu barədə Kreml məlumat yayıb. Prezidentlər Qarabağ ətrafında yaranmış vəziyyəti müzakirə ediblər.

Azərbaycanın dövlət başçısı Putinə Rusiya hərbçilərinin sentyabrın 20-də Qarabağda faciəli ölümü ilə bağlı dərin hüznlə başsağlığı verib.

İlham Əliyev baş verənlərlə bağlı hərtərəfli araşdırma aparılacağı və bütün təqsirkarların layiqincə cəzalandırılacağını vurğulayıb. Dövlət başçısı bununla bağlı hər iki ölkənin baş prokurorluqlarının sıx əlaqədə olduğunu qeyd edib.

Azərbaycan Prezidenti həmçinin həlak olanların ailələrinə maddi yardım göstərməyə hazır olduğunu bildirib.

Liderlər Qarabağda hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Rusiya sülhməramlı kontingentinin vasitəçiliyilə əldə edilmiş razılaşmanın ardıcıl həyata keçirilməsinin vacibliyini qeyd ediblər. Bu kontekstdə Bakı və Qarabağ ermənilərinin nümayəndələri arasında sülhməramlıların vasitəçiliyi ilə başlayan danışıqlara böyük əhəmiyyət verilib.

Danışıq zamanı regionda vəziyyətin daha da sabitləşdirilməsi və humanitar problemlərin aradan qaldırılması üçün prioritet addımlar müzakirə edilib. Vladimir Putin Qarabağın erməni əhalisinin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsinin vacibliyini vurğulayıb. Azərbaycan tərəfinin Rusiya sülhməramlıları ilə bu məsələlər üzrə qarşılıqlı fəaliyyətə hazır olduğu təsdiqlənib.

Bölgədə nəqliyyat əlaqələrinin açılması, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və Bakı ilə İrəvan arasında sülh müqaviləsinin hazırlanması baxımından ən yüksək səviyyədə məlum üçtərəfli sazişlərə uyğun olaraq danışıqlar zolağında işlərin intensivləşdirilməsi razılaşdırılıb.

Şoyqudan təhlükəli bəyanat: "Qarabağ İranla qonşudur..."

Rusiyanın müdafiə naziri iranlı həmkarları ilə görüşündə İranın qonşuları sırasında niyə Qarabağın adını çəkib?

Rusiyanın müdafiə naziri Sergey Şoyqunun İrandakı açıqlaması Qarabağda lokal antiterror tədbirləri fonunda diqqətdən kənarda qaldı. Rusiyanın müdafiə naziri iranlı həmkarları ilə görüşündə regional problemlər kontekstində birgə qərarların qəbul edilməsinin zəruriliyini bəyan edərkən, xüsusən İranın qonşuları olan Ermənistan və Qarabağın problemlərini qeyd edib.

Bu məqama "Ermənistanın səsi" xüsusi diqqət ayırıb, hətta sensasion bəyanat kimi izah edib. Bildirilir ki, Şoyqu Ermənistanı və "tanınmamış artsax respublikasını" İranın şimal qonşuları adlandırıb. "Ermənistanın səsi"nə danışan hərbi ekspert Ayk Harapetyan Şoyqunun bəyanatını şərh edərək "hesab edirəm ki, bu, Rusiyanın planları kontekstində çox ciddi mesajdır. İstisna etmirəm ki, "artsax"da baş verənləri nəzərə alaraq Rusiya Cənubi Osetiya ssenarisinə əməl edə bilər" deyib. Əlbəttə ki, hərbi ekspertin dedikləri cəfəngiyyatdır, çünki Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır, o cümlədən Qarabağı da. Amma Şoyqunun niyə bu ifadəni işlətdiyi həqiqətən də diqqət çəkir və müəyyən narahatlıq yaradır.

Ola bilər ki, Şoyqu Azərbaycanın müharibədə azad etdiyi İranla həmsərhəd bölgəni nəzərdə tutsun. Amma o istiqamətdə heç bir gərginlik yoxdur. İnandırıcı deyil ki, sülhməramlıların olduğu bölgənin xəritəsini Şoyqu bilməsin. O halda Şoyqunun hətta erməniləri ümidləndirən bu açıqlaması necə izah edilməlidir? Onu da demək lazımdır ki, Rusiya Müdafiə Nazirliyinin saytında tez-tez təxribat xarakterli informasiyalar yer alır: sülhməramlıların dislokasiya məntəqəsi nəzarətimizdə olan Laçın şəhəri göstərilir, toponimlər ermənicə yazılır, yəni şəhərlərimizi "Stepanakert", "Martakert" və "Martuni" adlandırırlar. Son hadisələrdən sonra hər halda Rusiya MN-in saytı buna da düzəliş etməlidir. Ona görə də Şoyqunun İranın qonşuları deyərkən Ermənistanı və Qarabağı qeyd etməsi başadüşülən deyil. Çünki Qarabağın Azərbaycana aid olduğunu Kreml və onun rəhbəri təsdiqləyib, oradakı özünü ikinci "erməni dövləti" elan etmiş mifik "artsax respublikası" da bir sutkalıq antiterror tədbirləri ilə arxivə qovuşdu. O halda rus general nəyi nəzərdə tutur?

Sosial Tədqiqatlar Mərkəzinin sözçüsü, siyasi ekspert Əziz Əlibəyli "Yeni Müsavat"a qeyd etdi ki, Azərbaycana aid məsələləri dövlət rəhbərliyi həll edir və Qarabağ bizə aid məsələdir. Təhlilçi vurğuladı ki, Sergey Şoyqunun bunu belə dilə gətirməsi yanlışdır və heç cür izah edilə bilməz. Ə.Əlibəyli bildirdi ki, Rusiya müdafiə nazirinin yanlış ifadəsi Azərbaycanın hədəflərinə mane ola bilməz: "Bunu antiterror tədbirləri də sübut etdi, Yevlax görüşü də nümayiş etdirdi. Ona görə də hər şey Azərbaycanın iradəsi çərçivəsində həllini tapır. Azərbaycanın ərazi bütövlüyü əsas götürülməklə proses davam etdirilir". **Ə.Əlibəyli söylədi ki, Rusiya təkcə Şoyqudan ibarət deyil və şimal qonşumuzda müxtəlif qurumlar, mərkəzlər var:** "Biz Kreml səviyyəsində hansı mövqe ortaya qoyduldüğuna şahid olduq. Azərbaycan ərazisi toxunulmazdır və "boz zona" ləğv edilir".

Hüquq müdafiəçisi Xəzər Teyyublu isə Kremlin sözçüsü Dmitri Peskovun açıqlamasına diqqət yetirməyi daha vacib hesab etdi: "Fikrimcə, Peskov prezident köməkçisi olaraq Putinin antiterror tədbirlərinə baxışını təqdim etdi. O, aydın surətdə ifadə etdi ki, Azərbaycan qanuni əməliyyat aparır və öz ərazisində həyata keçirir. Mariya Zaxarova da daha əvvəl bəyan etdi ki, Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb, yəni orada qanunsuz silahlı qüvvələrin çıxarılması addımları legitimdir. Ardınca da rəsmi səviyyədə elan olundu ki, sülhməramlılara təhdid yoxdur və Azərbaycanla bu məsələlər koordinasiya edilir. Ona görə də müdafiə naziri Şoyqunun Tehranda ağzından çıxan söz ehtiyatsız çıxışdır və heç bir əsası yoxdur. Ola bilsin ki, ermənilər bunu şişirdib özləri üçün yaxşı tərəfdən təqdim etməyə çalışırlar. Lakin beynəlxalq hüquqla Qarabağın Azərbaycan olduğu çoxdan bəllidir, Paşinyan da təsdiqləyib və onlar indi "saman çöpündən" yapışıb nəyəsə ümid etməklə nəticə qazana bilməzlər. Hər şey bitib, indi ocağın külü ilə oynayırlar. Şoyqunun sözü də ermənilər üçün ümid işığı kimi görünə bilər, amma çox kiçik detaldır".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Rusiya BMT Təhlükəsizlik Şurasında öz yerini itirə bilərmi?

Ukrayna Prezidenti Vladimir Zelenskinin BMT Baş Assambleyasındakı çıxışında ən heyrətamiz istəklərindən biri Rusiyanın bu beynəlxalq təşkilatın Təhlükəsizlik Şurasından xaric edilməsi ideyası olub. Bu barədə Almaniyanın "Tagesspiegel" nəşri yazıb.

Ukrayna Pezidenti Zelenski BMT-ni Rusiyanın Ukraynada silahlı münaqişə törətməsinə rəğmən, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü olaraq qalmasına görə tənqid edib. Lakin Zelenskinin bu istəyini icra etmək üçün qanuni imkan varmı? Rusiya BMT TŞ-nin, 1945-ci ildən əsası qoyulan bu təşkilatın başlıca "hakimiyyət mərkəzi"nin daimi üzvüdür.

O, digər dörd daimi üzvlər kimi (ABŞ, Çin, Fransa və Böyük Britaniya) veto hüququna malikdir. Yəni hətta bütün digər üzvlər belə qərara dəstək verəcəyi halda Rusiya bu qərarı bloklaya bilər. Vaxtilə "veto hüququ" haqqında bənd təhlükəsizlik maraqları naminə daxil edilib, bəzi tarixçilərin iddia etdiyi kimi, məhz bu, BMT-yə bəşəriyyəti nüvə müharibəsindən qorumağa kömək edib.

BMT Təhlükəsizlik Şurasının cəmi 15 üzvü var. Beş daimi üzvlərdən başqa, Baş Assambleyası iki il müddətinə daha 10 daimi olmayan üzvünü seçir, lakin onların veto hüququ yoxdur. Beləliklə, Rusiyanın "rədd edilməsi" üçün heç bir qanuni imkan yoxdur, bunu Fridrix-Aleksandr Universitetinin beynəlxalq hüquq üzrə professor Kristof Zafferlinq deyib.

"BMT TŞ-nin daimi üzvünün xaric edilməsi üçün bu təşkilatın Xartiyasında hətta prosedur nəzərdə tutulmayıb. Və əlbəttə ki, keçmişdə belə presedent olmayıb", - Zafferlinq deyib. Bundan başqa, xaric etmək üçün Təhlükəsizlik Şurasının bütün üzvlərinin veto hüququ olmadığı zaman səsləri lazımdır. Yəni əvəlcə Rusiyanın iclaslarda iştirak etməkdən imtina etməsi lazımdır.

BMT-nin bütün tarixi boyunca Moskva yalnız bir dəfə BMT TŞ-nin iclasını boykot edib. Bu, sovet dönəmində, 1950-ci illərdə baş verib. O zaman BMT Koreya yarımadasında Koreyanın cənubuna dəstək verməyə qərar verib.

"Tezliklə Sovet İttifaqı BMT TŞ-yə dönüb və bundan sonra belə şeylər baş verməyib, heç bu, nəzərdə də tutulmayıb", - Zafferlinq deyib.

Üstəlik, BMT TŞ-nin daimi üzvlərinin tərkibini genişləndirmək üçün bütün cəhdlər hələ ki uğursuzluğa düçar olub, bu da dünyada cari vəziyyəti deyil, 1945-ci ilin gerçəkliklərini əks etdirir. Məsələn, birləşmiş Almaniyanın TŞ-də yer alması üçün hələ 1990-cı illərdən edilən cəhdlər alınmayıb. (Moderator.az)

"Hazırda BMT-nin islahatı, sadəcə, real deyil, dünyada indiki siyasi vəziyyətdə bunun üçün "konsensus" sayda səs toplamaq mümkün olmur", - professor Zafferlinq hesab edir.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Qarabağdakı xunta rejimi silahsız qaldı, indi sıra onlarda!

Azərbaycan separatçı rejimin keçmiş "rəhbər"lərinin, hərbçilərin, əhaliyə qarşı vəhşiliklər etmiş canilərin təhvil verilməsini istəyir; mütəxəssislər detalları açıqladı

Qarabağdakı xunta rejiminin silahlı dəstələri cəmi 23 saat 43 dəqiqə çəkən lokal antiterror tədbirlərindən sonra təslim olmağa razılaşmaq məcburiyyətində qaldılar. Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoymağa, döyüş mövqelərindən və hərbi postlardan çıxmağa başlayacaq, tam şəkildə tərk-silah olunacaqlar.

Bununla da Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir, qeyri-qanuni erməni silahlı dəstələri buraxılır. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir. Bu prosesin necə aparılacağı haqda qarşıdakı günlərdə detallı bilinəcək. Böyük ehtimalla bu prosesdə əsas rol Rusiya sülhməramlılarının üzərinə düşəcək. Onlar erməni yaraqlılarını, silahlarını Laçın postunadək gətirəcək, bundan sonra onlar bir daha yoxlanılaraq Ermənistan sərhədinə rədd ediləcəklər. Ağır texnikalarının da təhvil-təslim prosesi güman ki, Ağdam istiqamətində ola bilər.

Beləliklə, xunta rejimi çox arxayın olduğu, "artsax"ın müdafiə qüvvələri deyərək, qondarma hərbi nazirlik, "təhlükəsizlik şurası", yaradanların silahlıları təslim oldular. Bundan sonra sıra onlardadır. Prezident İlham Əliyev hələ may ayında Laçında xunta rejiminə xəbərdarlıq edərək, çıxış yolu da göstərmişdi: "Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Amma o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər". Belə də oldu. Antiterror tədbirləri ilə marionet rejim demontaj oldu.

Tezliklə bu qondarma rejim Azərbaycanın qanuni strukturlarına tabe olacaq. Yeri gəlmişkən, Ermənistanın "Hraparak" qəzeti yazır ki, Azərbaycan separatçı rejimin keçmiş "rəhbər"lərinin, hərbçilərin və məmurlarının təhvil verilməsini istəyir.

"Caliber"in məlumatına görə isə bu siyahıda Birinci və İkinci Qarabağ müharibələri zamanı Azərbaycan Ordusuna və dinc əhaliyə qarşı vəhşiliklər, eləcə də ağır cinayətlər törətmiş şəxslərin adlarının olduğunu ehtimal etmək olar. Meşəli qətliamını törətmiş Vaqif Xaçatryanın yaxalanması kimi, digər canilərin də mühakiməsi mümkün olacaqmı, yoxsa bu işdə bizə Rusiya tərəfi mane ola bilər?

"Azərbaycanla Ermənistan sərhədində Laçın buraxılış məntəqəsi qurulandan və onun fəaliyyətə başlamasından sonra axtarışda olan 400-ə yaxını axtarışda olan erməni əsilli şəxsin tutulub istintaqa təhvil verilməsi işləri sürətləndirilib". Bunu baş prokuror Kamran Əliyev bildirib. Baş prokurorun sözlərinə görə, Qarabağda hərbi cinayətlər törətmiş ermənilərin bir qismi həbs edilib: "Bilirsiniz ki, ölkədaxili prosedurlara uyğun olaraq həmin cinayətləri törətmiş erməni əsilli şəxslərin bir neçəsi həbs edilib, məsuliyyətə cəlb olunub. Onların arasında artıq məhkum olunanlar da var, digərlərinin barəsində araşdırma davam edir. Ümumiyyətlə, qeyd edim ki, sərhəddə Laçın buraxılış məntəqəsi qurulandan sonra onun fəaliyyətə başlamasından sonra axtarışda olan 400-ə yaxın erməni əsilli şəxsin tutulub istintaqa təhvil verilməsi işləri sürətləndirilib. Ümid edirəm ki bu istiqamətdə də gələcəkdə daha müsbət nəticələr əldə edəcəyik. Beynəlxalq məhkəmələrə gəlincə isə bizim ölkədaxili istintaq zamanı əldə etdiyimiz sübutlar aidiyyəti qurumlar, o cümlədən Xarici İşlər Nazirliyi tərəfindən həmin beynəlxalq məhkəmələrə təqdim edilir" - deyə Kamran Əliyev bildirib.

Hərbi ekspert Azad İsazadənin "Yeni Müsavat"a bildirdiyinə görə, qatillərin, canilərin mühakiməsi üçün ilkin işlər aparılmalıdır: "Əvvəlcə amnistiya elan etməliyik. Sonra hansı cinayətkarın amnistiyaya düşüb-düşmədiyini göstərməliyik. Çünki Qarabağda yaşayan erməni kişiləri müxtəlif qanunsuz addımlarda iştirak ediblər. Kimisi məcbur edilib, kimisi postda dayanıb, kimisi isə mülki şəxslərə işgəncələr verib. Ona görə də hərbi caniləri qruplara bölməliyik. Vəhşilik etmiş, qəddarlığa yol vermiş canilərin mühakimə edilməsi mümkündür. Biz siyahını dəqiqləşdirməliyik, amma bəzilərinə qarşı amnistiya elan edə bilərik. Ancaq o demək deyil ki, hər şeydən azaddırlar. Onlar bələdiyyələrdə iştirak etməməlidirlər, hansısa vəzifələr tutmamalıdırlar. Bunu da hüquqşünaslar daha dəqiq söyləyə bilərlər. Ümumilikdə beynəlxalq praktikaya baxmaq lazımdır".

Politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Araik Arutyunyan və onun kimilər, o cümlədən qətliamlarda iştirak edənlər amnistiya oluna bilməz: "Onların cinayət işlərinə xitam verilə bilməz, qalanlarının məsələsinə baxıla bilər. Bir il əvvəl Moskvadan Xankəndinə göndərilən Ruben Vardanyan da Qarabağı nə qədər tez tərk etsə özü üçün yaxşıdır. Ümumiyyətlə, Yevlaxdakı görüşdə Xankəndidə Azərbaycan bayrağının dalğalanmasından, manatın işlənməsindən tutmuş qazın, elektrikin və internetin Azərbaycan qanunları çərçivəsində istifadəsinə qədər bütün məsələlər həll olunmalıdır. Bunlarla razılaşmayan ermənilərə Laçın yolundan ölkəmizi tərk etmək seçimi veriləcək".

Təhlükəsizlik sahəsi üzrə ekspert Sülhəddin Əkbər hesab edir ki, qondarma qurumun taleyinin necə olacağı qeyri-müəyyən olaraq qalır: "Bundan əlavə, təbii ki, hər zaman olduğu kimi, Rusiya, Ermənistan, Qarabağdakı rejim və onların havadarları bu atəşkəsdən sui-istifadə edib, çıxış yolları axtarmağa başlayacaqlar. Düşünürəm ki, Azərbaycan tərəfi əldə olunan razılaşmanın sona qədər, heç bir qeyd-şərtsiz yerinə yetirilməsinə nail olmalıdır. Biz yalnız Ermənistan silahlı qüvvələrinin öz ərazimizdən çıxarılması, Xankəndindəki rejimin "özünümüdafiə ordusunun" buraxılması, tərk-silah edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda o qondarma rejimi hərbi və siyasi baxımdan utilizasiya etməliyik".

❑ **Emil SALAMOĞLU**
"Yeni Müsavat"

Kremlin anonsu: sülhməramlıların sayı artırıla bilər

Rusiya prezidentinin sözçüsünə verilən sual təsadüfdürmü?

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, Kreml regiondakı eskalasiyadan narahatdır. Onun sözlərinə görə, hazırda əsas məsələ İrəvan və Bakını güc metodlarından əl çəkməyə inandırmaqdır: "Azərbaycan Silahlı Qüvvələri regionda mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər görməlidir. Rusiya hərbçiləri üçün orada təhdid yoxdur. Onlar Ermənistan və Azərbaycan tərəfləri ilə təmasdadır və ən yüksək səviyyədə təmaslar mümkündür".

Peskov Qarabağda Rusiya kontingentinin sayının artırılması mümkünlüyü haqqında suala da cavab verib. Bildirib ki, bu cür qərarlar hərbçilər tərəfindən formalaşdırılır və bütün tərəflərlə razılaşdırılır.

Kreml rəsmisi problemin siyasi və diplomatik həllinə nail olmaq imkanının mövcud olduğunu da söyləyib.

Maraqlıdır ki, Qarabağdakı sülhməramlılarla bağlı məsələyə dəfələrlə həm Rusiya, həm də Azərbaycan rəhbərliyi səviyyəsində münasibət bildirilib. Ancaq nədənsə, regiondakı belə həssas dönəmdə Rusiyanın siyasi dairələri və mediası sülhməramlıların sayının artırılması ilə bağlı məsələni yenidən gündəmə gətirir. Məqsəd nədir?

Hərbi-siyasi ekspert, ehtiyatda olan polkovnik Daşdəmir Əliyev Bakı-xeber.com-a bildirib ki, iki il əvvəl sülhməramlıların sayının süni şəkildə artırıldığı ilə bağlı fikirlər səsləndi: "Bu xəbər Azərbaycanda böyük narazılıqla qarşılandı. Bildirildi ki, onu müqavilədə nəzərdə tutulan səviyyəyə salmağın yolu prosesə Azərbaycan rəhbərliyi və Xarici İşlər Nazirliyinin müdaxiləsindən keçir.

Belə fikirlər səsləndi ki, Qarabağdakı Rusiya sülhməramlılarının sayı 7-8 minə çatdırılıb. Müqavilədə göstərilən say isə 1960 nəfərdir.

Qarabağ Azərbaycanın tərkib hissəsidir. Bizim razılığımız olmadan orada yerləşən sülhməramlıların sayı qanunsuz olaraq artırılmamalıdır. Qarabağda sülhməramlıların yerləşdirilməsi, hansı sayda olması ilə bağlı imzalanan konkret rəsmi sənəd var. Qarabağdakı Rusiya sülhməramlı qüvvələrinin sənəddə göstəriləndən artıq olması imzalanmış üçtərəfli müqavilənin şərtlərinin pozulması deməkdir. Ancaq görünən budur ki, Rusiya bunu istəyir, eyni zamanda 2025-ci ildə belə regionu tərk etmək istəmir. Bu onu göstərir ki, Rusiya prosesdə obyektiv tərəf qismində çıxış etmir. Rusiyanın Qarabağa sülhməramlı adı ilə göndərdiyi adamların sayını hansı məqsədlə artırmaq istədiyi məlumdur. Amma bu, Azərbaycan tərəfinə, daha çoxu isə özünə hörmətsizlikdir. Azərbaycan Rusiyanın ən yaxın müttəfiqidir. Bütün bunların qarşılığında Moskvanın bu cür mövqe tutması, təbii ki, Azərbaycanın ona qarşı münasibətində bir sıra ciddi redaktələrə getməsinə səbəb oldu. Rusiya sülhməramlı kontingenti tərəfindən həyata keçirilən bu cür fəaliyyətlər üçtərəfli bəyanatın müddəalarının icrası ilə bağlı üzərlərinə düşən vəzifə borclarının yerinə yetirilməməsidir.

Onlar vəzifə və öhdəliklərinin əksinə olaraq, Azərbaycanın Qarabağ iqtisadi rayonunda fəaliyyət göstərən qeyri-qanuni erməni dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər maddi-texniki təminat vasitələrinin daşınmasını müşayiət etməklə sərbəst hərəkətinə şərait yaradılmasını həyata keçiriblər. Bütün bunlar əldə edilmiş razılıqların sülhməramlı kontingent tərəfindən kobud şəkildə pozulması deməkdir. Qarabağdakı sülhməramlı kontingent ermənilərin qanunsuz əməllərinə şərait yaratmaqla özlərinə olan inamı da sıfıra endirir. Bu baxımdan da onların nəinki sayının artırılması, hətta vaxtından əvvəl regionu tərk etmələri yaxşı olardı. Azərbaycan Qarabağda başladığı antiterror tədbirlərini yekunlaşdırandan sonra sülhməramlılara heç ehtiyac qalmayacaq".

❑ **"Yeni Müsavat"**

Prezidentin xalqa müraciətində dörd mühüm mesaj

Humanizm, qətiyyət, ermənilərin xilas yolu və regionda təməlli sülh!

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində bildirib ki, Azərbaycan Qarabağda lokal xarakterli antiterror tədbirlərində qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcək.

Prezident qeyd edib ki, 20 sentyabr təxminən saat 13:00 radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir: "Antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir...

Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq".

Prezident qeyd edib ki, əməliyyatın uğurlu gedişatı Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır: "Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda bütün silahları və texnikaları təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks təqdirdə, sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.

Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə - Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu və onu da bildirməliyəm, artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən onlar bizim şərtimizi qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar..."

İlham Əliyev deyib ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər: "Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranları ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Yevlax şəhərində mənim nümayəndəmlə Qarabağ icmasının nümayəndələrinin görüşü əsnasında biz öz baxışlarımızı, gələcək birgə yaşayış baxışlarımızı onlara çatdıracağıq. Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir..."

Dövlət başçısı cəmi iki il ərzində böyük quruculuq işlərinin görülüdüyündən danışıb və vuğulayıb ki, eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər.

Politoloq Anar Əliyev "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev lokal antiterror tədbirlərinin yekunu olaraq xalqa müraciəti bir çox istiqamətlərdə xalqımızın, dövlətimizin baxış prizmasını əsas hədəflərini çatdırmış oldu: "Prezidentin bu çıxışı bir neçə istiqamətdən təhlil edilməlidir. Birincisi, antiterror tədbirlərinin həyata keçirilməsini zəruri edən səbəblər və bu səbəblərə Azərbaycan dövlətinin reaksiyası, davranışı istiqamətindən. Azərbaycan Prezidenti qəti şəkildə bir daha bəyan etdi ki, Azərbaycan humanist mahiyyətinə uyğun olaraq uzun müddətdir Ermənistandan üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini gözlədi. Amma təxribatlara, terrora da heç bir halda güzəşt etməyəcəyini nümayiş elətdirdi və antiterror tədbirlərinin mahiyyətində də Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi, havadarlarının mənasız dəstəyinə arxayın olaraq destruktiv davranış nümayiş etdirməsi dayanır. Azərbaycan Prezidenti antiterror tədbirlərinə başlama əmri verərkən həm də ordu qarşısında bu vəzifəni müəyyən etdi ki, nöqtə atışları ilə yalnız legitim hərbi hədəflər sıradan çıxarılmalıdır.

Prezidentin çıxışında üçüncü istiqamət Azərbaycan Prezidentinin erməni dinc sakinlərə müraciəti idi. Prezident İlham Əliyevin müraciəti dinc erməni sakinlər tərəfindən diqqətə alınmalıdır. Onlar bundan sonra yaxşı həyat yaşamaqlarında maraqlıdırlarsa, bu müraciətə müsbət əməli reaksiya verməlidirlər. Azərbaycan Prezidenti erməni sakinlərə ləyaqətli həyat vəd edir. Erməni sakinlər İlham Əliyevin verdiyi vədləri yerinə yetirən lider olduğunu, hər halda, görürlər. Ona görə də ona inanmalıdırlar".

Politoloq hesab edir ki, Prezident İlham Əliyevin çıxışında növbəti istiqamət Ermənistan dövlətinə və cəmiyyətinə yönəlik fikirlər idi: "Prezident Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına ümid yarandığını ifadə etdi. İlham Əliyev bununla göstərdi ki, Ermənistan cəmiyyəti, dövləti son iki gündə olduğu kimi nisbətən düzgün davranış nümayiş etdirəcəksə, bölgəyə sülh gələcək. Ermənistan cəmiyyəti və dövləti yaranmış şansdan səmərəli istifadə etməyi təklif etdi.

Azərbaycan dövlət başçısı Ermənistanın havadarlarına, Cənubi Qafqazı rahat yaşamağa qoymayan beynəlxalq güclərə, dövlətlərə də Cənubi Qafqazın lider dövlətinin lideri olaraq sərt formada müraciət etdi".

Politoloq bildirdi ki, cənab Prezidentin müraciətində ən mühüm məqamlardan biri işğaldan azad olunan rayonlarımızda olduğu kimi, Xankəndidə, Xocavənddə, Ağdərədə, Əsgəranda da quruculuq işlərinin həyata keçiriləcəyi ilə bağlı oldu. Prezidentin bizim iradəmizə təsir edəcək heç bir qüvvənin mövcud olmadığını bəyan etməsi isə Azərbaycan cəmiyyətinə və bütün dünyaya verilmiş mesaj idi.

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Azərbaycanın 23 saat 43 dəqiqə çəkən antiterror tədbirlərinə cəmiyyət 44 günlük savaşda olduğu kimi ciddi dəstək verdi. Bütün cəmiyyət yenə Qarabağda baş verənlərə diqqət kəsildi. Həm ordu, həm hakimiyyət, həm media, eləcə də siyasi qurumlar bir hədəfə vurdu. Təbii ki, yenə də bəziləri öz xislətini bu və ya digər şəkildə göstərdi.

Azərbaycanın 23 saat 43 dəqiqəsi: sınaqdan çıxanlar və çıxmayanlar...

Bütün dövlət strukturları bu qısa, amma çox məsuliyyətli sınaqdan üzüağ çıxdı, işlərini koordinasiyalı qurdu, diplomatik korpusla çox fəal iş aparıldı; bəs media və partiyalar?

Hərbi ekspert, polkovnik Şair Ramaldanov xalqın ciddi mənəvi dəstək verdiyi antiterror tədbirlərində ordunun fəaliyyətinin yüksək qiymətləndirdi: "Qarabağda təxminən 10 minlik qanunsuz silahlı qüvvə var. Nə sadə erməni xalqı, nə də Paşinyan onların bölgədən uzaqlaşdıra bilməzdi. Bunu Azərbaycan etməli idi. Azərbaycan hər zaman olduğu kimi, öz haqqını ordusu ilə müdafiə edir. Budəfəki antiterror tədbiri xüsusi yanaşma tələb edirdi. Biz həm qanunsuz silahlıları tərk-silah etməli, həm də dinc əhalini hədəf almamalı idik. Bir gün ərzində unikal antiterror tədbiri keçirildi. Biz əksər obyektləri sıradan çıxarmağa nail olduq. Tədbirin unikallığı ondan ibarətdir ki, yaşayış məntəqələri digər hədəflərdən ayrılmışdı. Biz dəqiq atəş açan müasir vasitələri yaşayış məntəqələrinə yaxın hədəflərə yönəltmişdik. Yaşayış məntəqələrindən kənarda olan hədəflərə artilleriya və minaatanlardan və s. atış açıldı, çünki radius 200 metrdən 600 metrə qədərdir. Düşmən buna hazır deyildi. Düzgün müşahidə sistemi quraraq düşmənin şəxsi heyətini qaçmağa məcbur etdik. Qarabağın qara günləri bitdi, bundan sonra ağ günlər başlayacaq, dinc əhali artıq rahat nəfəs alacaq, reinteqrasiya prosesinə qoşulacaq, bölgədə sülh, əmin-amanlıq təmin ediləcək".

Deputat Hikmət Babaoğlu qeyd etdi ki, Azərbaycan hakimiyyətinin qısa müddətdə sülhə nail olmaq üçün antiterror tədbiri həyata keçirmək qərar zamanında oldu: "Ermənistan kapitulyasiya aktına imza atdıqdan sonra 3 il müddətində sülhün əldə edilməsinə mane olurdu. Qarabağda qeyri-qanuni silahlı qüvvələr olduğu müddətdə sülhün əldə olunması qeyri-mümkündür. Bu tədbir sülhü yaxınlaşdırmaq üçün həyata keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində Azərbaycanın ermənilərə qarşı humanist mövqeyinə diqqət çəkdi. Ölkə başçısı vurğuladı ki, ermənilərə qarşı etnik təmizləmə siyasəti aparılmır. Üstəlik, əsgərlərimizin peşəkarlığı və müasir silahlar yalnız hərbi hədəflərin sıradan çıxarılmasına imkan yaratdı. Antiterror tədbiri ilə bağlı müxtəlif proqnozlar var idi. Bəziləri hesab edirdi ki, 44 günlük müharibədən sonra Ağdərə istiqamətində qalan, sayı 10 mindən çox olan erməni silahlı birləşmələrinin mövcudluğu müqaviməti artıra bilər. Bundan əlavə, ziqzaqvari xüsusi səngərlər qazılıb. Belə mürəkkəb şəraitdə Azərbaycan Ordusunun qüvvələri antiterror tədbirini 24 saatdan az müddətdə yerinə yetirdi. Biz bir daha Ermənistan və onun havadarlarına ismarış verdik ki, Azərbaycan Ordusuna qarşı durmaq üçün illər lazımdır. Bunun özü diplomatiyada çəkindirici faktordur. Bu, sülhün daha tez əldə olunmasına gətirib çıxaracaq". Deputat dedi ki, bütün dövlət strukturları bu qısa da olsa, amma çox məsuliyyətli sınaqdan üzüağ çıxdı, işlərini koordinasiyalı qurdular, diplomatik korpusla çox fəal iş aparıldı.

Mətbuat Şurasının sədri Rəşad Məcid "Yeni Müsavat"a bildirdi ki, antiterror tədbirləri ilə bağlı medianın fəaliyyətindən razı qalıb: "Media peşəkarlıq göstərdi. Bəzi sosial media istifadəçilərinin özfəaliyyətini nəzərə almasaq, ümumi mənada təmkinli davranış nümayiş etdirildi".

AMİP Mərkəzi Şurasının sədri Rəşad Bayramov isə bir neçə partiyanın lokal antiterror tədbirinə dəstək verməməsini belə şərh etdi: "Ermənistanın Azərbaycanın konstitusiya quruluşuna yönəlik hərbi təhdidlərinə qarşı ölkəmizin keçirdiyi lokal antiterror əməliyyatlarına siyasi partiyaların dəstək verməsi təqdirəlayiqdir və belə də olmalı idi. Üç partiya tərəfindən ümumi bəyanatın imzalanmaması isə başadüşülən deyil və səbəb nə olursa-olsun qəbuledilməzdir. Antiterror əməliyyatlarının başlanması bir sosial tələb idi. Gəncindən yaşlısına qədər hər kəs artıq uzun müddətdir ki, bu əməliyyatların başlanmasını istəyirdi. Çünki söhbət Azərbaycanımızın bir parçasından gedir. Təbii olaraq siyasi partiyalarımız da məsələdə yekdil fikirdə idilər və imzalanan son bəyanatla bir daha həm ordumuza, həm Ali Baş Komandana dəstəklərini ifadə etmiş oldular. Məsələ orasındadır ki, həm AXCP, həm Müsavat, həm də REAL rəhbərliyi uzun müddətdir ki, hakimiyyəti antiterror tədbirlərinə başlamadığı üçün tənqid edirdilər. Amma görünən odur ki, bu tənqidlərində səmimi olmayıblar. Səmimi olsaydılar, əməliyyatların başlamasını dəstəkləyərdilər. Belə müxalifətçilik olmur. Uzun müddət hakimiyyəti mənasız danışıqlar apardığı üçün tənqid edib əməliyyatların başlamasını tələb edəsən, əməliyyat başlayanda isə problemin danışıqlar yolu ilə həllinin vacibliyini deyəsən. Bu, qəbuledilən deyil. Birdəfəlik bilmək lazımdır ki, milli, dövlət maraqları olan yerdə müxalifətçilik ola bilməz. Bu məsələ ümummilli məsələdir, ona görə də hər kəs bir mövqedən çıxış eləməlidir, milli mənafeyə uyğun hərəkət etməlidir. İmzalanan ümumi bəyanatın mətni bütün internet resurslarında var və hər kəs də tanış ola bilər. Azərbaycanın siyasi partiyaları üçtərəfli bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın müzəffər ordusunun bölgədə həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatlarına dəstəklərini ifadə ediblər. Burada imzalanmasından imtina ediləcək və narahatlıq doğuran nə ola bilər ki? Görünən odur ki, problem bəyanatın mətni ilə bağlı deyil. AXCP, Müsavat və REAL Partiyası ölkədə yaranmış siyasi və milli birlikdən narahatdırlar. Amma dərk etmirlər ki, belə bir məqamda da ümumi bəyanata imza atmaqdan imtina təkcə milli birliyə qarşı addım deyil, həm də dörd bir tərəfdən üzərimizə gələn ayrı-ayrı beynəlxalq qüvvələrə həmrəylik nümayişidir".

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"



Jurnalistin qardaşı nəvəsi şəhid olub

Azərbaycan Ordusunun sentyabrın 19-20-də Qarabağda separatçılara qarşı apardığı antiterror tədbirləri zamanı jurnalist Asif Mərzilinin də yaxın qohumu şəhid olub.

Bu barədə "Təzadlar" qəzetinin baş redaktoru A.Mərzili özü bildirib:

"Qardaşımın nəvəsi Samir Aqil oğlu Məmmədov "Vətənə can qurban!" deyərək Ağdərə uğrunda döyüşlərdə şəhid olub...

Allah bütün Vətən şəhidlərimizə rəhmət eləsin!", - A.Mərzili qeyd edib.

Rusiyada doğuldu, Qarabağda şəhidliyə yüksəldi

Azərbaycan Ordusunun sentyabrın 19-20-də Qarabağda separatçılara qarşı apardığı antiterror tədbirləri zamanı şəhid olan hərbçilərimizdən biri də Vəliyulla Elman oğlu Əliyevdir. Siyasi şərhçi Fuad Çıraqov şəhid barədə ətraflı məlumat təqdim edib.

O qeyd edib ki, Vəliyulla Əliyev Rusiyanın Dərbənd şəhərində doğulub böyüyən azərbaycanlıdır. Vəliyulla Əliyev Azərbaycanda hərbi məktəbdə təhsil alıb, məzun olandan sonra Rusiyaya qayıtmaq istəməyib. Halbuki məzun olandan sonra qayıdıb Rusiya ordusunda xidmət etməli idi.

"Özü bir dəfə söhbətdə dedi ki, başqa ölkənin bayrağına hərbi salam vermək və qulluq etmək istəməyib".

Vəliyulla 2020-ci ildəki Vətən müharibəsində qəhrəmancasına döyüşüb və ağır yaralanıb. Sağalandan sonra hərbi xidmətini davam etdirib, yenə də ən ağır tapşırıqların icraçılarından olub.

Uzun müddət Azərbaycan vətəndaşlığı almaq üçün çalışan V.Əliyev nəhayət şəhadətindən əvvəl həmin sənədi əldə edə bilib.

Antiterror tədbirləri zamanı şəhid olan Vəliyulla Əliyevin nəşi Bərdəyə aparılıb.

Allah rəhmət eləsin.

Azərbaycanla ABŞ və Türkiyənin dəniz qüvvələri arasında əməkdaşlıq

Amerika Birləşmiş Ştatlarının (ABŞ) Nyuport şəhərində 90 ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanları ilə yanaşı, müxtəlif mühüm dəniz təşkilatlarının nümayəndələrinin də iştirakı ilə keçirilən 25-ci Beynəlxalq Dəniz Gücü Simpoziumu davam edir.

Müdafiə Nazirliyindən verilən xəbərə görə, simpozium çərçivəsində Azərbaycan HDQ komandanı vitse-admiral Sübhan Bəkirov Türkiyə Respublikasının HDQ komandanı donanma admiralı Ercüment Tatlıoğlu və Amerika Birləşmiş Ştatlarının HDQ komandanı admiral Liza Franketti ilə görüşüb.

Görüşlərdə Azərbaycan-Türkiyə və Azərbaycan-ABŞ HDQ arasında hərbi, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qarabağda erməni rezervasiyaları yaratmaq olarmı?

Zamin HACI
zaminhaci@gmail.com

Dövlətin işinə qarışmaq istəmirəm, ancaq mənə elə gəlir biz rusiyalı "sülhməramlıların" Qarabağda həlak olması faktına həddindən artıq diqqət ayırdıq. Ara yerdə öz əsgərlərimizi cəzalandırmalı olduq.

Birincisi, o rus əsgərlərini Qarabağa biz çağırmamışıq ki, məsuliyyəti də daşıyaq? İkincisi, o cür rus əsgərlərindən Ukraynada hər gün yüzlərləsi həlak olur, heç Marqarita Simonyanın-zadın vecinə deyildir. Rus əsgəri bizim torpaqda öləndə isə planetar miqyaslı faciə hay-küyü qopur. Allah rəhmət eləsin, salavat veririk. Başqa nə edək?

Elə Xankəndidən 2-3 zəhmətkeşimizin Yevlağa səfərinə də lazım olduğundan (əslində heç kimə lazım deyil) çox diqqət edildi. Bəyəm nə olub? Hər gün minlərlə azərbaycanlı Salyandan Bakıya, Şəkidən Gəncəyə, Ordubaddan Culfaya və sairə və ilaxır istiqamətlərə yollanır. Biz onları xəbər mövzusu edirik? Etmirik. 2 erməni vətəndaşımız Yevlağa gəlib. Belə xoş gəlməyib heç, cəhənnəmə gəlib, bizə nə? Jurnalistika kitablarında rast gəlinən məşhur təsbit yada düşür: "Əgər it adamı dişləsə xəbər deyil, adam iti dişləsə xəbərdir".

Hərçənd ekspertlər demiş, "informasiya kirliliyinin" səbəbləri aydındır: təzə gəliş-gedişdir, ona görə diqqət çəkir. İnşallah, axırıncı olsun... Zarafat edirəm, Vəzirov demişkən, lap ermənilər Bakıya qayıtsın, bunun dövlətçiliyimizə hazırda ziyanı yoxdur. Tezliklə Xankəndi sakinlərinin Yevlağa, Yevlax sakinlərinin də Xankəndinə səfərləri adi hal alacaqdır. Fürsətdən istifadə edərək Yevlağın Malbinəsi və Qoyunbinəsi kənd sakinlərinə salam göndərirəm. Çox yaxşı camaatdı, 2003-cü ildə o kəndlərdə olmuşam. Səhv eləmirəmsə, Malbinəsi kəndindəydi, proletariatın dahi rəhbərlərindən Karl Marksın büstü kənd icra hakimiyyətinin qabağında dururdu. Təsəvvür elə, SSRİ-nin dağılmasından 10 ildən çox keçsə də kəndlilər Marksın heykəlini saxlamışdılar. Bəlkə indiyəcən durur, xəbərim yoxdur.

Sözü ona gətirirəm ki, biz tarixi ənənələrə hörmətlə yanaşan camaatıq, dünya erməni təəssübkeşlərinin hay-küy qoparması, Azərbaycana sanksiya tələbləri o üzdən havada qaldı. Örnək üçün, dünən bir erməni saytı kin-küdurət, paxıllıq, yanıqla yazmışdı ki, biz ABŞ-dan Azərbaycana tədbir görməyi umuruq, onlar isə hərbi əməkdaşlıq edir. Bizim Müdafiə Nazirliyindən kiminsə ABŞ-da rəsmi görüşləri haqda xəbərə istinadən yazmışdı. Ancaq haçana qədər dünya belə mənasız ağlaşmaları, "biz qədimik, ilk xristianıq, ay haray, bizi qoruyun, matahıq, gəlin belinizə minək" mövzularını dinləməli idi? Hamı ermənilərdən bezib. İnsanlar, xalqlar yaşamaq istəyir, həyatdan zövq almaq istəyir. Qədimsən, lap qədim peşə yiyəsisən, bizə nə? Camaat gələcəyə baxır, keçmişi arxeoloqların ixtiyarına buraxıblar.

Üstəlik, sosioloji araşdırmalara görə bütün dünyada dinlərə səmimi-qəlbdən inananların sayında azalma varkən (2017-ci ilin rəqəmlərinə görə dünya əhalisinin 35 faizindən çoxu dinsizlər və radikal ateistlərdir), özünü xristianlığı birinci qəbul edənlərdən olmaqla reklam etmək nə işə yarayar? Ağılları səlib yürüşləri zamanında qalıb. Fikirləşirlər deyəcəyik Azərbaycan xristian düşmənidir, Makron dərhal uşaqlardan qoşun yığıb göndərəcək. Ay hay. (Burada "hay" təsadüfən tam yerinə oturur - Z.H.). Ölmüşdü Səlahəddin Əyyubi...

Bəlkə də bu "qədim, yerli, aborigen xalq" söhbətindən Qarabağ ermənilərinə hansısa yanaşmada istifadə edilə bilər. ABŞ-da qızıldərililər üçün rezervasiyalar yaradılıb. Orada hindu xalqlarının müəyyən hüquqları, özəl statusları qorunur. Biz Ağdərədə, Xankəndi yaxınlığında erməni zəhmətkeşlərimiz üçün bu tip hasarlanmış, sərhədləri çəkilmiş yaşayış zonaları yaradaq, orada qədim fəaliyyətlərini davam etdirsinlər. Oxşar rezervasiyalardan tək ABŞ-da deyil, Kosta Rikada da var.

İndi söz əlaqədar təşkilatların... daha dəqiqi, yevlaxlılarındır. Siz də Xankəndinə gedin, xəbər yazaq.

Qərb Paşinyanın hakimiyyətdə qalmasını istəyir

Ekspertlərə görə, erməni baş nazirin hələ görə biləcəyi işlər var və Qərb tərəfdaşları Ermənistan hökumətinə dəstək verəcək

İrəvandakı mer seçkisində əhalinin təxminən 25 faizinin seçkidə iştirakı və hakim partiyanın son illər ilk dəfə seçkidə qələbə üçün lazımi üstünlük əldə etməməsi müxalifəti Paşinyana qarşı daha aktiv hərəkətə keçməyə ürəkləndirib. Seçkidə üçüncülük qazanmış "Ana Ermənistan" alyansının rəhbəri Andranik Tevanyan indi əsas müxalifət rolunu üzərinə götürüb.

O, Nikol Paşinyanın istefası tələbə ilə Respublika meydanında çadırlar qurub. Paralel olaraq siyasi qüvvələr parlamentdə Paşinyanın impiçmenti prosesinə start verir. Artıq müxalifət nümayəndələri Ermənistanın 2024-cü ili Paşinyansız qarşılayacağına söz verirlər.

Bəzi erməni ekspertlər deyirlər ki, Paşinyanın missiyası hələ tamamlanmayıb və Qərb onu hələ qorumaq iddiasındadır. Belə ki, hələ 102-ci baza, Rusiya sərhədçiləri yerindədir. Rus mütəxəssislər hələ "Metsamor" AES-də işləyir, Ermənistan isə KTMT-nin üzvüdür. Eləcə də Azərbaycan və Türkiyənin ümumi quru sərhədi hələ də mövcud deyil. Məhz missiyası tamamlanmadığı üçün o, kreslosundan "dişləri ilə möhkəm yapışacaq". Rusiyaya yaxın erməni saytları isə iddia edir ki, Paşinyan baş nazirlikdən uzaqlaşdırılandan sonra Ukrayna və ya hər hansı digər Qərb ölkəsindən siyasi sığınacaq istəyə bilər. Ermənilər yazır ki, onu geri qaytarmağın çətin olacağı yeganə ölkələr Türkiyə və Azərbaycandır. Paşinyan hətta bu ölkələrdə öz "mühacirət hökumətini" qura bilər. Paşinyanın istefaya göndərilməsi və ya ölkədən qaçmaq məcburiyyətdə qalarsa, Ermənistan-Azərbaycan danışıqlarında nəyəsə ümid etmək olarmı, daha sərt xəttin tərəfdarı gələ bilərmi? Paşinyan bu cür basqılar altında sülh danışıqlarına başlaya bilərmi və sairə.

Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov Ermənistanın Rusiyadan qopmasını mümkün hesab etmir: "Son hadisələr göstərdi ki, Paşinyan bəzi dairələrin düşündüyü qədər də sadə siyasətçi deyil. Heç şübhəsiz ki, onun atdığı addımların bir çoxu - xüsusilə də Rusiya ilə bağlı gedişləri heç də tək özünün təşəbbüsü ola bilməz. Qərbin və əsasən də ABŞ-ın aidiyyəti strukturları bu məsələlərin idarə olunmasında xüsusi rol oynayırlar. Təbii ki, Ermənistanın Rusiyadan qopması bir o qədər də asan məsələ deyil. İndi kimlərsə çıxış edib Rusiya Ermənistanı artıq itirdi və s. bu kimi fikirlər səsləndirə bilər. Ancaq gerçəklər bundan ibarətdir ki, indiki durumda Rusiyanın Ermənistanı itirməsi və Ermənistandan tamamilə çıxması yalnız bu dövlətin Ukrayna müharibəsində sarsıdıcı bir məğlubiyyətindən sonra mümkün ola bilər. Qalan bütün hallarda Ermənistanın Rusiyadan qopması o qədər də asan görünməsin. Bu gün Gümrüdə Rusiyanın böyük hərbi bazası mövcuddur, Ermənistanın dövlət sərhədləri Rusiya ordusu tərəfindən qorunur, Ermənistan iqtisadiyyatı demək olar ki, tam olaraq Rusiyadan asılı bir vəziyyətdədir. Bu ölkənin əsas dövlət kampaniyalarının sahibi və ya onlarda pay çoxluğu ilə söz sahibi Rusiya kampaniyalarıdır. Rusiya Ermənistanın ucuz qaz təminatını həyata keçirir və s. Bir sözlə, bu gün boğulan Ermənistan üçün Rusiya süni tənəffüs aparatını xatırladır. Bu aparat birdən-birə söndürülsə, Ermənistan bir dövlət kimi sayılı günlər ərzində çökər. Paşinyan Qərblə nə qədər oynasa da o, bütün bu dediklərimizin fərqindədir. O başa düşür ki, qırmızı xəttə yaxınlaşsa da onu keçmək olmaz.

Bütün bu deyilənlər fonunda İrəvanda keçirilmiş seçkilərdə uduzmaq hələ hər şey demək deyil. Paşinyan üçün uğursuz olan budur ki, həmin seçkilər məhz bizim Qarabağ torpaqlarımızda apardığımız antiterror əməliyyatı ilə eyni vaxta düşdü. Bu hadisə hakimiyyətə münasibətinin necə olmasından asılı olmayaraq 30 ildən çoxdur ki, "Qarabağ Ermənistan ərazisidir" şüarı ilə beyni yuyulmuş istənilən ermənіyə istər-istəməz mənfi təsir edir. Lakin ən böyük həqiqət bundan ibarətdir ki, Ermənistanda artıq əhalinin böyük əksəriyyəti dövlətlərinin Rusiyanın əlində oyuncaq olmasını ürəkdən istəmir. Belə olmasaydı, onlar 44 günlük müharibədəki ağır məğlubiyyətdən sonra Paşinyanı yenidən, özü də yetərincə böyük səs çoxluğu ilə dövlətlərinin başına seçməzdilər.

Beləliklə, Rusiyanın bütün səylərinə baxmayaraq, Paşinyanın indiki dönəmdə ona qarşı terrordan başqa yolla hakimiyyətdən getməsi mümkün deyil. Qərb Paşinyanla başlatdığı layihəsini başa çatdırmaq üçün Ermənistana hər formada dəstək verəcək".

AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli ermənilər üçün zamanın çox dəyişdiyini qeyd etdi: "Fikrimcə, Paşinyan istefa verən deyil, özü də bu haqda bir daha bildirib. Antiterror tədbiri başlayandan İrəvanda müxalifət yenə mitinqlərə başladı. Parlament binasının və rus səfirliyinin qarşısına insanlar yığıldı, palatkalar quruldu, amma bütün bu etirazlar gözlənilən effekti vermədi. Çünki Ermənistan ermənilərinə Qarabağ lazım deyil. Bu ötən əsrin 80-lərin sonu, 90-ların əvvəli deyil ki, "miasum" şüarları altında İrəvan meydanına minlər, on minlər yığışsın. 44 günlük müharibə ermənilər üçün soyuq duş oldu. "Qarabağ klanı"na illərlə yığılan nifrət öz sözünü dedi. Cinayətkar Qarabağ klanının hakimiyyəti dövründə Qarabağ və Ermənistan ermənіləri arasında böyük uçurum , nifrət yaranıb. Ermənistan ermənilərinin böyük hissəsi artıq "miatsum" ideyaları uğrunda ölmək istəmirlər. Ona görə düşünmürəm ki, inqilab və ya seçkilər yolu ilə Paşinyan istefaya məcbur edilsin. İndiki məqamda Nikol, fikrimcə, ancaq hərbi çevriliş yolu ilə hakimiyyətdən uzaqlaşdırıla bilər. Buna da gediləcəyinə zənn etmirəm. Çünki bu riskli addım olardı. Həm də hərbi xuntanın qalib gələcəyinə heç kəs təminat verə bilməz, hətta Kreml belə. Uğursuz hərbi çevriliş Ermənistan-Rusiya münasibətlərinin üstünə indiki məqamda birdəfəlik xətt çəkə bilər. Buna da Putin getməz. Görmürsünüz, Moskva İrəvanın de-marşlarına necə ehtiyatla cavab verir. Bu da o anlama gəlir ki, Kreml də Paşinyan iqtidarı ilə münasibətləri korlamaq istəmir. O ki qaldı sülh prosesinə, Qarabağ tam nəzarətimizə keçəndən sonra Azərbaycan-Ermənistan münasibətlərində hansısa irəliləyişlər görə bilərik. Xalqa müraciətində prezident İlham Əliyev də bu haqda mesajlar verdi. Paşinyanın indi əsas məqsədi BMT tərəfindən tanınan Ermənistan ərazilərini qoruyub saxlamaqdır. O, birdəfəlik Qarabağdan əlini üzüb, Zəngəzuru qoruyub saxlamaq dərdindədir. Ona görə bu təhlükə İrəvana Bakıya tərəf addımlar atdıra bilər. Lakin bir daha söyləyirəm, bütün bunların baş verməsi, hansısa pozitiv irəliləyişlərin olması üçün bu ilin sonuna qədər Qarabağ tam şəkildə, Qazağın 7, Naxçıvanın isə bir kəndində Azərbaycan suverenliyini bərpa etməlidir".

❑ Cavanşir ABBASLI

"Qoşunla Yevlağa kimi gələcəyik" demişdilər - amma indi belə gəldilər!

Erməni nümayəndələri ilə görüşün ilkin nəticələri açıqlandı - ermənilər yanacaq və ərzaq istəyiblər; Azərbaycan dövləti verdiyi sözə sadiqdir, bəs qarşı tərəf?

Lokal xarakterli antiterror tədbirləri nəticəsində ağ bayraq qaldıraraq təslim olan və danışıqlara razılaşan Qarabağın erməni sakinlərinin nümayəndələri sentyabrın 21-də görüş üçün Yevlax şəhərinə gəliblər. APA-nın yerli bürosunun məlumatına görə, onları Azərbaycan polisi ilə bərabər Rusiya sülhməramlı kontingenti müşayiət edib.

Görüşdə Azərbaycanın mərkəzi hakimiyyətini Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov təmsil ediblər.

Qarabağın erməni sakinlərini isə Sergey Martirosyan və David Melkumyan təmsil ediblər. Əlavə məlumat üçün qeyd edək ki, Sergey Martirosyan general Vitali Balasanyana yaxındır, onun vaxtında "təhlükəsizlik şurası" adlı quruma gətirilib. Bundan əvvəl Xankəndidə Ramin Məmmədovla görüşdə iştirak edib. Həmin görüşdən sonra onu vəzifəsindən azad ediblər. Martirosyanın oğlu 44 günlük savaşda itkin düşüb. Bir ara separatçıların sülhməramlılarla əlaqələrinə cavabdehlik edib.

Nümayəndə heyəti arasında keçirilən görüş 3 saatdan artıq çəkib. Saat 13.20-də görüş yekunlaşıb.

Görüş barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası açıqlama yayıb. Açıqlamada bildirilib ki, Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin Rusiya tərəfinin rəhbəri kontr-admiral Oleq Semyonov iştirakçı qismində görüşə qatılıb: "Konstruktiv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb. Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib. Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb. Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər. Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır. Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib", - açıqlamada qeyd edilib.

Görüş başa çatdıqdan sonra Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Sky News Arabia" telekanalının efirində deyib ki, Qarabağ erməniləri ilə Azərbaycan arasında bütün problemlərin bir görüşdə həllini gözləmək çətindir: "Hesab edirəm ki, Yevlaxda bugünkü danışıqlar çoxlu görüşlərdən birincisidir. Gözləmək lazım deyil ki, Qarabağ erməniləri ilə Azərbaycan arasında bütün problemlər bir görüşdə həll olunacaq. Qarabağdakı ermənilərin sonrakı taleyi Azərbaycanın daxili işidir".

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a şərhində bildirib ki, erməni radikallar və onlara dəstək verən xarici mərkəzlər Yevlaxda razılaşmanın əldə edilməsini və onun yerinə yetirilməsini əngəlləməyə çalışacaqlar. Qarabağda atəş səslərinin hələ də eşidilməsi və Rusiya hərbi kontingentinə açılan atəş də buna xidmət edir: "Məqsədləri vaxt qazanmaqdır ki, bu müddətdə Azərbaycana beynəlxalq təzyiq artsın, BMT və digər strukturlar Azərbaycana qarşı müzakirələrə başlasınlar. Çünki ağ bayraq qaldırdıqdan sonra kapitulyasiya erməni radikallarla, onlara dəstək verən mərkəzlərin Azərbaycana qarşı təzyiq planlarını pozacaq. Xarici mərkəzlər dedikdə yalnız Qərbdəki dairələri nəzərdə tutmuram, işin içində Rusiyadakı şovinist mərkəzlər də var, hansılar ki, uzun onilliklər separatizm vasitəsilə ərazi bütövlüyünün bərpası məsələsində müxtəlif dövlətlərə, o cümlədən Azərbaycana təzyiq ediblər, mane olublar. Bu baxımdan tələsməliyik, separatçılara "bunu sonrakı mərhələdə müzakirə edərik" kimi şanslar verməməliyik, ordumuzun ildırımsürətli əməliyyatı kimi diplomatiyamız da separatizmi bitirmək üçün sürəti artırmalıdır. Erməni təxribatçıların və onlara dəstək verən xarici mərkəzlərin vəziyyəti gərginləşdirmək istəkləri istisna deyil. Ona görə Daxili Qoşunların Xankəndinə və Qarabağın ermənilər yaşayan digər məntəqələrinə daxil olması mütləq şərtdir".

Politoloqun sözlərinə görə, Yevlaxdakı görüşdə ermənilər ola bilsin ki, bizdən amnistiya məsələsinin həllini də istəyiblər və ya gələcəkdə istəyəcəklər: "Araik Arutyunyan və onun kimilər, o cümlədən qətliamlarda iştirak edənlər amnistiya oluna bilməz, cinayət işlərinə xitam verilə bilməz, qalanlarının məsələsinə baxıla bilər. Bir il əvvəl Moskvadan Xankəndinə göndərilən Ruben Vardanyan da Qarabağı nə qədər tez tərk etsə, özü üçün yaxşıdır. Ümumiyyətlə, Yevlaxdakı görüşdə Xankəndidə Azərbaycan bayrağının dalğalanmasından, manatın işlənməsindən tutmuş qazın, elektrikin və internetin Azərbaycan qanunları çərçivəsində istifadəsinə qədər bütün məsələlər həll olunmalıdır. Bunlarla razılaşmayan ermənilərə Laçın yolundan ölkəmizi tərk etmək seçimi veriləcək.

Bütün şərtlərimiz və tələblərimiz kiçik detallarına qədər yerinə yetirilməlidir, çünki separatçılar yazırlar ki, "təslim olmaq məcburiyyətindəyik, ancaq bizim günümüz yenə gələcək". Elə etməliyik, "həmin günlər" bir daha gəlməsin, bir daha baş qaldıra bilməsinlər. Silahları təhvil verməyə hazır olduqlarını bildirsələr də, reinteqrasiya mövzusunu "müzakirə predmeti" kimi qələmə verirlər. Azərbaycan qanunlarına tabe olmalısınız! Bu, müzakirə predmeti deyil, əsas tələblərimizdən biridir. Xankəndinə silahlı qüvvələrimizin daxili və prosesi yerindəcə nəzarət etməyə ehtiyac yaranacaq. Rusiya hərbi kontingentinin bunları edəcəyinə inamımız yoxdur. Rusiya hərbi kontingentinin özünə də nəzarət lazımdır".

Sonda Qarabağdakı ermənilərin nümayəndələri ilə görüşün niyə daha yaxın Bərdədə və ya Tərtərdə keçirilməməsi barədə bəzi suallar da var.

Ermənistan Birinci Qarabağ müharibəsində Azərbaycandakı hərc-mərclikdən və ordunun olmamasından istifadə edərək böyük ərazilərimizi işğal etdilər. Hətta dəfələrlə hədələyirdilər ki, əgər növbəti müharibə olsa, bu dəfə erməni qoşunları Yevlağa qədər gələcək. Hətta "biz Yevlağa çatıb Azərbaycanın neft ixracının yolunu kəsməliyik" çağırışları edilirdi.

İndi ermənilər 44 günlük müharibədən sonra ikinci dəfə çox qısa müddətli növbəti məğlubiyyət dərsi aldılar. Bakının onlara hansı taleyi yazacağını görmək üçün Yevlağa gəldilər. Erməni nümayəndələri ilə görüşün bu şəhərdə seçilməsində verilən mesajı da bu cür qəbul etmək lazımdır...

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Ermənilər Amaras monastırını da "ermənilərləşdiriblər"

Ceyhun Məmmədov: "Artıq erməni saxtakarlığının sonu olmalıdır, çünki..."

Azərbaycan Silahlı Qüvvələrinin Xocavənddə yerləşən qədim alban Amaras monastırının nəzarətinə keçirdiyi bildirilir. Bunu erməni siyasətçi Mesrop Arakelyan bildirib. Qeyd etmək yerinə düşər ki, sadə və aydın memarlıq obrazı olan Amaras monastır kompleksi Qafqaz Albaniyasının - Azərbaycanın xristian memarlığının dəyərli abidələrindən sayılır. Ermənilər uzun illərdir ki, Azərbaycana məxsus bir çox memarlıq abidələri kimi bu abidəyə də sahib çıxmağa çalışıblar.

Məlumat üçün deyək ki, Qafqaz Albaniyasının yepiskopluq mərkəzi olmuş Amaras şəhərinin xarabalıqları eyniadlı çayın sağ sahilində Cütcü kəndi ərazisində qalmaqdadır. Tarixi məlumatlara görə, IV əsrdə Amarasda ilk xristian məbədi tikilib və burada Alban yepiskoplarından biri dəfn edildiyindən ziyarətgaha çevrilib. Həmin qəbir indi Amaras kompleksindəki kilsənin altarı altındakı sərdabədə qalıb. Bu sərdabəni 1970-ci ildə Azərbaycan arxeoloqları aşkar edib. Amaras monastır kompleksi IX əsrdə tikilmiş və sonrakı yüzilllərdə dəfələrlə təmir və əlavələr edilib. Bu kompleks indiki görkəmini XIX əsrdə alıb. Amaras monastırı düzbucaq planlı olub küncləri dairəvi bürclərlə möhkəmləndirilib. Onun həyətini dövrələyən qala divarları boyunca hücrələr, yaşayış və təsərrüfat otaqları tikilib. Monastırın təsərrüfat hissəsi əlavə otaq sırası ilə kilsə həyətindən ayrılıb. Monastırın qala divarlarına əlavə möhkəmlik verən bu otaq və yerləşgələr qaba daşlardan, arxivoltları isə yaxşı yonulmuş daşlardan tikilib. Monastırın həyətinə giriş qapısı cənub divarın qərb qurtaracağındadır. Kompleksin baş tikilisi olan kilsə həyətin ortasında ucalır. Kilsənin giriş qapısı qərb tərəfdədir. Amaras kilsəsinin ikienişli dam örtüyünün qərb ucunda altı sütunlu zəng rotondası qoyulub. Kilsənin bütün fasadları yaxşı yonulmuş daş lövhələrlə üzlənib.

Yeri gəlmişkən, uzun illərdir işğal altında olan Azərbaycan ərazilərindəki məscidlər, dini, tarixi, mədəni abidələr erməni vandalları tərəfindən dağıdılıb. Təbii ki, bu, onların dini, mədəni və tarixi dəyərlərə olan nifrətindən irəli gəlir. Fakt kimi işğal altında olan torpaqlarımızdakı məscidlərdən ermənilərin tövlə kimi istifadə etməsini də deyə bilərik. Bəzi abidələrin isə tamamilə görünüşlərinin dəyişdirilməsinin şahidi olmuşuq. Buna misal olaraq ermənilərin işğal altında saxladıqları Şuşa şəhərində yerləşən tarixi Yuxarı Gövhər Ağa məscidinin rekonstruksiyası adı ilə məscidin görünüşünü dəyişdirməsini göstərə bilərik.

Bəs görəsən, Amaras məbədinin əvvəlki tarixi simasını qaytarmaq mümkün olacaqmı? Nəzərə alsaq ki, ermənilərin dünyada olduqca güclü dəstəyi var, YUNESKO və digər bu kimi təşkilatlardan böyük dəstək alırlar. Hətta lavaşı belə "erməni lavaşı" adı ilə özününküləşdirməyə çalışırlar. Lavaş isə ona görə "ermənilərin" sayılıb ki, 2014-cü ildə UNESKO "erməni lavaşı"nın bişirilməsi və yeyilməsi ənənəsini bəşəriyyətin qeyri-maddi mədəni irs siyahısına daxil etmək qərarına gəlib.

Milli Məclisin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov "Yeni Müsavat"a dedi ki, ermənilərin oğurladığı kifayət qədər mənbələr, tarixi faktlar var: "Ermənilər uzun illər Amaras kilsəsinin tarixini saxtalaşdırmağa çalışıblar. Amma tarixdən də məlum olduğu kimi, kilsə ən qədim alban kilsələrindən biridir. Qarabağda mövcud olan ən məşhur, ən qədim tarixi kilsələrdən biridir. Ermənilərlə bunun heç bir əlaqəsi yoxdur. Bunu artıq erməni siyasətçilər, ekspertləri də bildirirlər. Nəinki Amaras, eyni zamanda Azərbaycan ərazisində olan bir çox kilsələr ermənilər tərəfindən ermənileşdirməyə məruz qalıblar. Ermənilər Qafqaz Albaniyasının tarixinə uzun illərdir sahib çıxmağa çalışırlar. Artıq Azərbaycan bununla bağlı müvafiq addımları atır və atacaq. Çünki bəzi beynəlxalq təşkilatlar da Azərbaycan tarixinin saxtalaşdırılmasında erməniləri dəstəkləyir və onlara kömək etməyə çalışırlar. Amma bütün bunlara baxmayaraq tarixi faktlar və sübutlar əsasında biz buna nail olacağıq. Artıq erməni saxtalaşdırmasının da bir sonu olmalıdır. Dünya Birliyi də Ermənistana təzyiqləri artırmalıdır. Bu millət xəstə millətdir, hər şeyi saxtalaşdırmaqla məşğuldur. Bu qəbuledilməzdir".

Qeyd edək ki, işğal olunmuş ərazilərimizdə Ermənistan tərəfindən yüzlərlə tarixi abidə, onlarla muzey, məscid və mədəni irs nümunələri vandalizm obyektinə çevirib. XIX əsrə aid Ağdam məscidi dağıdılıb talan edilməklə yanaşı, donuz və mal-qara saxlanılması üçün tövlə kimi istifadə edilib və təhqir obyektinə çevrilib. Rəsmi məlumata görə, işğal altındakı Azərbaycan torpaqlarında təsbit olunan tarixi-dini abidələrin sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si ziyarətgahdır. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq MİRAYİQ

XIII əsrdə Zəngəzurda erməni..?

Albanşünas alim ermənilərin yalanlarını tutarlı faktlarla ifşa etdi

Qədim və orta əsrlər dövrünün alban tarixçilərinin, keşişlərinin, kilsə xadimlərinin çoxunun ermənileşdirildiyi, onların əsərlərinin təhrif edildiyi məlumdur. Zəngəzur mahalının Qafqaz Albaniyasının ən əhəmiyyətli ərazilərindən biri olduğu və burada xristianlığın təşəkkül tapdığı faktdır. Bu o dövrlərdə baş verib ki, bizim bölgədə hayların izi-tozu olmayıb, amma onlar özlərini hər yırtığa yamaq etməyi adətə çeviriblər.



Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli kitabın tarixi əhəmiyyətindən bəhs edərək, onu ermənilərin Azərbaycana qarşı dünyada apardığı ideoloji mübarizənin bünövrəsində dayanan saxta erməni tarixi konsepsiyasını alt-üst edən bir mənbə kimi dəyərləndirib.

Mətbuatda gedən məlumatlara əsasən, təxminən 1250-1304-cü illərdə yaşamış Stepan Orbelian tarixi Sünik ərazisində - indiki Zəngəzur mahalının Sisian bölgəsində anadan olub. "Onun mənsub olduğu Orbeli (Orbelian) sülaləsi əslində Turan nəslindən idi və miladdan çox-çox əvvəllər İberiya ərazisində məskunlaşmış, bu sülalənin bir çox nümayəndələri öz qəhrəmanlıqları ilə ölkənin hüdudlarını genişləndirmişlər. Lakin ölkədaxili siyasi proseslərin istəmədən iştirakçısına çevrilən Orbelianlar 1177-ci ildə gürcü çarı Georgiyə qarşı üsyan qaldırmış, məğlub olaraq Loru qalasına sığınmış, çar Georgi tərəfindən nəslin bir çox nümayəndələri qətlə yetirilmiş, yalnız Libarit Orbelian və onun İvane və Elikum adlı iki oğlu sağ qalıb ki, onlar da qaçıb Eldəgizlər//Eldəquzlar sarayına sığınmışlar. Elikum Atabəy Eldəquzun dərin hörmətini qazandığından Naxçıvan diyarının hakimi təyin olunmuş və tezliklə Sünik yepiskopu Stepanosun bacısı qızı Xatunla evlənmişdir. Elikum Xatundan olan oğluna atası Libaritin adını qoymuş, həmin Libarit də böyüyüb Sünik hakimi olmuşdur. Bu nəvə Libaritin Aspa Xatun adlı qadınından beş oğlu dünyaya gəlmişdir. O oğulların ən kiçiyi tarixi mənbələrdə Dərsəikan//Dərsəican//Dərsəic və çox vaxt da adın əvvəlindəki D samiti T kimi yazılan Dərsə içxan//Tərsa içxan 1273-cü ildə Siyuni (Sünik) hakimi seçilmiş, "xanlar xanı", "böyük xan" kimi titullar daşıyıb, "Kitabi-Dədə Qorqud" dastanlarına Dərsə xan//Dirsə xan kimi daxil olub. Bütün bunlar və digər məlumatlar Sünik yepiskopu, məşhur tarixçi Stepan Orbelianın XIII yuzilin sonlarında qələmə aldığı "Sünik tarixi" əsərində bəhs edilib". Bu fikirlər də mediada yer alıb.

Qeyd edək ki, bəzi tarixçilər kitabın "Sünik tarixi" adı altında nəşrini ciddi tənqid edib və bildiriblər ki, bu, yolverilməzdir. Əsas narazılıq da o olub ki, 700 il əvvəl Zəngəzur adı tarixi mənbələrdə qeyd edilirdisə, onda "Sünik" sözünün işlədilməsinə ehtiyac yox idi.

Bu, təbii ki, ayrı bir mübahisənin predmetidir. Biz keçək Stepan Orbelianın ermənileşdirilməsi məsələsinə. O, alban olduğu halda ermənilər onu nə üçün erməni kimi qələmə veriblər?

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutun elmi katibi, tarix üzrə fəlsəfə doktoru, albanşünas Ellada Bəkirova Bakı-xeber.com-a bildirib ki, alban tarixinin elə görkəmli siması yoxdur ermənilər ona qarşı iddia irəli sürməsin. "Ümumiyyətlə, Albaniya tarixi ilə bağlı yazılanların, orta əsrlər qaynaqlarının bir çoxuna ermənilər iddia irəli sürür və "bizim müəlliflərdir" deyirlər. Onlara qalsa, Gəncəli Kirakos da "ermənidir", eləcə də başqaları öz "tarixçi"ləri kimi qələmə verirlər. Heç Moyisey Kalankatlını alban kimi qəbul etmirlər. Erməni tarixşünalığında bu cür saxta fikirlər, əsassız iddialar çoxdur. Onlar alban tarixçilərini "erməni" çıxarmağa çalışırlar. Düzdür, bu mənim tədqiqat sahəm deyll, amma alban müəllifləri sırasında onun da adı sadalanır. Amma bütövlükdə alban tarixinə baxanda görürük ki, ermənilərin təkcə Stepan Orbelianı deyil, başqalarını da erməni kimi qələmə vermək ənənəsi var. Bildiyim qədər, onun kitabı bir müddət əvvəl ölkəmizdə çap olunub. Hətta nəşrin "Sünik tarixi" adlandırılması mübahisə doğurdu, dedilər ki, onun adı "Zəngəzur tarixi" olaraq da qeyd oluna bilərdi. Müəllif kitabı "Sünik tarixi" adlandırıb. Bizim keçmiş və indiki müəlliflərin yazdıqlarında və sovet dövründə yazılanlarda Stepan Orbelian alban müəllifi olaraq qeyd edilir", - deyə E.Bəkirova qeyd edib.

E.Bəkirova bildirdi ki, alban mənbələri, alban müəlliflərinin əsərləri ermənilər tərəfindən saxtalaşdırılıb, üzü köçürülüb, əsli isə məhv edilib. O vurğuladı ki, ermənilər hər zaman saxtakarlığa meylli olub, alban kilsəsi erməni Qriqoryan kilsəsinə tabe edildikdən sonra onlar saxtalaşdırmanı daha da genişləndiriblər.

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Bakıda daha bir mühüm tədbir

Spiker Asiya Parlament Assambleyası üzvlərinə antiterror tədbirləri haqda geniş məlumat verdi

Sentyabrın 21-də Milli Məclisdə Asiya Parlament Assambleyası (APA) Sosial və mədəni məsələlər üzrə daimi komitənin iclası keçirildi. Qeyd edək ki, iclasda Milli Məclisin sədri Sahibə Qafarova, Bəhreyn, Fələstin, İndoneziya, İran, İraq, Kamboca, Küveyt, Pakistan, Qazaxıstan, Qətər, Səudiyyə Ərəbistanı, Suriya, Tayland, Tacikistan, Türkiyə və Asiya Parlament Assambleyasının Katibliyinin nümayəndə heyəti iştirak edirdilər.

İclasda giriş nitqi ilə APA-nın baş katibi Muhammed Reza çıxış edərək hər kəsi salamladıqdan sonra iclas iştirakçılarına, Milli Məclisin sədri Sahibə Qafarovaya, həmçinin iştirakçılara, yüksək rütbəli şəxslərə, parlament və hökumət üzvlərinə təşəkkür edib. "Bu, bir şərəfdir ki, Azərbaycan Milli Məclisi APA-nın üzvü kimi iclasa ev sahibliyi edir" - baş katib bildirib.

Sahibə Qafarova Asiya Parlament Assambleyasının Sosial və mədəni məsələlər üzrə daimi komitəsinin iclasında çıxış edib. Parlamentin spikeri, APA-nın Asiya dövlətlərini parlamentlərarası əməkdaşlıq formatında bir çətir altında birləşdirən yeganə təşkilat olduğunu qeyd edib, Milli Məclisin təşkilatla əməkdaşlığın inkişaf etdirilməsində yaxından maraqlı olduğunu vurğulayıb. APA-nı Asiya qitəsində və dünyada əməkdaşlığın, sülhün və sabitliyin möhkəmləndirilməsinə nail olmaq məqsədilə cari problemlərin və çağırışların həlli üçün ümumi səyləri səfərbər edən parlament diplomatiyası üçün mühüm platforma adlandıran Milli Məclisin sədri qeyd edib ki, təşkilatın Asiya qitəsi daxilində müxtəlif sahələrdə həmrəyliyin təşviqinə və əməkdaşlığın inkişafına yönəlmiş fəaliyyəti xüsusi diqqətə layiqdir. Sosial və mədəni məsələlər üzrə daimi komitənin bugünkü iclasında Asiya regionunda baş verən bir çox aktual məsələlərə dair qətnamə layihələrinin müzakirə olunacağını deyən spiker Sahibə Qafarova bunlar arasında yer alan mədəni müxtəlifliyin təşviqi və mədəni irsin qorunması, informasiya-kommunikasiya texnologiyaları vasitəsilə Asiya inteqrasiyası, dünya dinləri arasında dinlərarası dialoqun inkişafı, mədəni sərvətlərin qaçaqmalçılığı ilə mübarizədə hüquq və qanunvericilik sahələri arasında əməkdaşlıq kimi məsələlərin region üçün böyük əhəmiyyət kəsb etdiyini bildirib. Milli Məclisin sədri, bu gün Azərbaycan nümayəndə heyətinin təşəbbüskarı və müəllifi olduğu "Qadınlar üzrə Komissiya haqqında" qərar layihəsinin də bu iclasda müzakirəyə çıxarılmasını əlamətdar hal adlandırıb. Müasir dünyada qadınların səlahiyyətlərinin artırılması istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsinə, saysız-hesabsız səylərə rəğmən, bu sahədə ciddi problemlərin hələ də mövcud olduğunu deyən spiker Sahibə Qafarova adıçəkilən qətnamə layihəsində mövcud problemlərin həlli məqsədilə APA çərçivəsində Qadınlar üzrə Komissiyanın yaradılmasının təklif olunduğunu bildirib.

Spiker Sahibə Qafarova belə bir təşəbbüsün 1918-ci ildə müsəlman Şərqində ilk dəfə qadınlara səsvermə hüququ verən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi-ideoloji varisi tərəfindən irəli sürülməsinin heç də təsadüf olmadığını xüsusi qeyd edib. O, sənəddə komissiyanın yaradılma səbəbləri, məqsədləri, funksiyaları və çərçivələri barədə müfəssəl məlumatın yer aldığını iştirakçıların diqqətinə çatdırıb. "Qadınlar üzrə Komissiya"nın yaradılmasının APA-nın fəaliyyətində gender bərabərliyinin təmin edilməsi məsələsinin ön planda saxlanmasına zəmanət verəcəyini deyən parlamentin spikeri, bunun Asiya ölkələrində qadınlara qarşı diskriminasiyanın aradan qaldırılmasına müsbət töhfə verəcəyinə inamını ifadə edib. Asiya qitəsində həmrəylik, əməkdaşlıq və parlament diplomatiyasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikasının 2024-2025-ci illər üçün Asiya Parlament Assambleyasının sədrliyinə namizədliyini rəsmən irəli sürdüyünü bildirən parlamentin spikeri, ölkəmizin bu təşkilata sədr seçiləcəyi təqdirdə, APA-nın institusional strukturunun təkmilləşdirilməsi və digər parlamentlərarası qurumlarla əməkdaşlığının genişləndirilməsi məsələlərinə xüsusi önəm verəcəyini qeyd edib, iştirakçı ölkələrin bu sahədə ölkəmizə dəstək olacaqlarına ümidvar olduğunu bildirib.

Daha sonra tədbir iştirakçıları hazırda Cənubi Qafqazda baş verən və regionda sülhə və sabitliyə təsir edən vəziyyət barədə məlumatlandırılıb. Azərbaycanın 2020-ci ildə ərazilərini 30 illik erməni işğalından azad etdikdən sonra beynəlxalq hüququn norma və prinsipləri əsasında Ermənistanla münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması təşəbbüsü ilə çıxış etdiyi vurğulanıb. Suverenliyə və ərazi bütövlüyünə hörmətin bugünkü beynəlxalq nizamın əsasını təşkil edən meyar olduğu bildirilib. Azərbaycanın güclü iradəsinə və uzunmüddətli sülh və sabitlik istiqamətində atdığı ardıcıl addımlara baxmayaraq, Ermənistanın bunun əksinə hərəkət etdiyi nəzərə çatdırılıb. Razılaşmalardan geri çəkilmək və yeni bəhanələr irəli sürmək, real danışıqlardan qaçmaq, hərbi-siyasi təxribatlar törətmək, ərazilərimizdə yaradılmış qanunsuz separatçı rejimi bütün mümkün vasitələrlə ayaqda saxlamaq cəhdləri Ermənistanın son iki il yarım ərzində sərgilədiyi dəyişməyən davranış şəkli olduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan dəfələrlə Ermənistanın 10 mindən çox silahlı əsgərinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tam çıxarılmasını və qondarma rejimin ləğvini tələb edib, bunun regionda sülhə və sabitliyə nail olmaq üçün əsas vacib şərt olduğunu bəyan edib.

Spiker Sahibə Qafarova sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin bir sıra irimiqyaslı hərbi təxribatlara və terror aktlarına əl atdığını iştirakçıların nəzərinə çatdırıb. O, bu təxribatlara cavab olaraq, ölkəmizin regionda lokal anti-terror tədbirlərinə başladığını deyib, bu tədbirlərin məqsədinin Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan ərazilərindən tərk-silah edilərək çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpası olduğunu vurğulayıb. Bildirilib ki, ötən gün Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin müraciətinə baxılaraq qeyd olunan şərtlər əsasında lokal antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub. Milli Məclisin sədri erməni sakinlərin nümayəndələri ilə bu gün yenidən başlayacaq dialoqun onların Azərbaycan cəmiyyətinə reinteqrasiyası ilə nəticələnəcəyinə, öz növbəsində Ermənistanın da normallaşma prosesi çərçivəsində məsuliyyətli davranacağına və regionumuzda uzunmüddətli sülhü və sabitliyi təmin edəcək sülh sazişini imzalayacağına ümidvar olduğunu bildirib.

Türkiyə nümayəndə heyətinin rəhbəri Abdulkadir Emin Önen beynəlxalq tədbir iştirakçıları qarşısında Türkiyə-Azərbaycan qardaşlığından bəhs edib.

İki qardaş dövlətin ortaq kədərinin və sevincinin olduğunu vurğulayan natiq "Qarabağ işğaldan azad olunanda biz ağlayırdıq. İkinci Qarabağ müharibəsindən sonra biz qələbəni birgə qeyd etmişik. Bu iki qardaş xalq arasında əlaqələr dünyada və regionda nümunədir" - A.Önen bildirib.

Musavat.com-un məlumatına görə, türkiyəli qonaq deyib ki, biz bu gün qlobal çətinliklərlə üzləşirik: "Asiyada gözəl fürsətlər var ki, kövrək də olsa, addımlar atılsın. Türkiyə Asiyada yeni təşəbbüsləri həyata keçirir. Türkiyənin potensialı geosiyasi və qlobal əməkdaşlıq təşəbbüsünü irəli sürüb. Biz burada qarşılıqlı maraqları həyata keçirərək əməkdaşlıq etmə niyyətindəyik. Bu gün gündəliyimizdə çox vacib məsələlər var. Biz mədəni, sosial məsələlərlə bağlı dialoqun təşviqindən başlamalıyıq". **Natiq bildirib ki, Türkiyə bütün dünyada qaçqınları qəbul edən bir saylı ölkədir:** "Miqrasiya məsələsi bir ölkənin səyləri ilə həll oluna bilməz. Bu mənada ehtiyac var ki, qaçqınlarla bağlı bütün ölkələr əməkdaşlıq etsinlər. Yardımla bağlı əməkdaşlığın inkişaf etditrilməsi vacibdir ki, uzunmüddətli inkişaf təmin olunsun". **O, parlament diplmatiyasını yumşaq güc kontekstində çox vacib nüans olaraq dəyərləndirdi:** "Əsas məqsədimiz parlamentlərarası əlaqələri gücləndirməkdir".

"Bütün həmkarlarımızı 1918-ci ildə Müsəlman Şərqində ilk demokratik respublikanı qurmuş və bu böyük coğrafiyada qadınlara seçmək-seçilmək hüququ vermiş ilk ölkə olan Azərbaycanda salamlamaqdan çox şadam". Bunu Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva söyləyib. Millət vəkili bildirib ki, açılış Asiya Parlament Assambleyası və onun müvafiq Komitəsi ilk dəfədir Azərbaycanda toplantı keçirir: "Mənim üçün özəlliklə çox qürurverici haldır ki, APA-nın Sosial-mədəni məsələlər üzrə daimi komitəsinin iclası Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinin, gözəl Qarabağın Ermənistanın işğalından azad olunmasının 3-cü ildönümü ərəfəsində keçirilir". **Komitə sədri qeyd edib ki, Azərbaycan rəsmi qaydada 2024-2025-ci illər üçün APA-nın sədrliyinə namizədliyini irəli sürüb:** "Təşkilatın ümumi məqsədlərinə çatmaq üçün, Asiya dövlətləri arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi, təşkilatın rolunun artırılması üçün əlimizdən gələni əsirgəməməyə çalışacağıq. Ümid edirəm ki, bizim namizədliyimiz təşkilat üzvləri tərəfindən dəstəklənəcək və birlikdə biz daha böyük nailiyyətlər əldə edəcəyik. Bilirəm, çoxunuz ölkəmizə ilk dəfə gəlmisiniz, ancaq şübhə etmirəm ki, bu, son gəlişiniz olmayacaq, sizi Azərbaycanda yenə görəcək, yeni müzakirələr apara biləcəyik. Bakıda olduğunuz müddətdə şəhərimizin görməli yerlərini görmək, zəngin Azərbaycan mədəniyyəti ilə yaxından tanış olmaq imkanınıza görə şadam və inanıram ki, buradan gözəl duyğularla ayrılacaqsınız. Hamınıza dəvətimizi qəbul edib gəldiyiniz üçün bir daha təşəkkürümü bildirirəm. Mən toplantımızın yüksək səviyyədə keçirilməsində əməyi olan Azərbaycan Milli Məclisinin sədri Sahibə xanım Qafarovaya, APA Baş katibi və Katibliyin bütün əməkdaşlarına dərin təşəkkürümü bildirirəm. Biz APA Katibliyi ilə çox yüksək səviyyədə əməkdaşlıq ruhunda çalışırıq və onlara dəstəkləri üçün bir daha ayrıca təşəkkürümü bildirmək istəyirəm. Komitəmizin işinə uğurlar arzu edirəm və iclasın olduqca səmərəli keçəcəyinə əminəm".

İclasda gündəlikdəki məsələlər müzakirə olunub və yekun sənədlər qəbul edilib..

❑ **E.PAŞASOY,**
Musavat.com

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Referendum olmayacaq, deputat yeri artmayacaq

Növbəti parlament seçkiləri qarışıq sistemlə keçirilə bilər?

Bir neçə gün əvvəl REAL sədri İlqar Məmmədov özünün sosial media hesabında Azərbaycanda bir sıra seçki dairələrinin ləğv olunacağını və yenilərinin yaradılacağını bildirib. Partiya sədri ləğv ediləcək 3 seçki dairəsinin adını açıqlamışdı.

Onun sözlərinə görə, 114 saylı Şəki kənd birinci seçki dairəsi (bu dairədən Əli Məsimli deputat seçilib) 76 saylı Lənkəran-Astara seçki dairəsi (bu dairənin deputatı Ziyafət Əsgərovdur) və 69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi (Fəzail İbrahimli) ləğv ediləcək. Partiya sədri iddia edib ki, Sumqayıtda 2, Abşeronda isə 3 yeni seçki dairəsi yaradılacaq. "Bunları haradan bilirik? Sözügedən o 3 dairədə partiyamızın təqdim etdiyi Dairə Seçki Komissiyası üzvləri var və MSK bizə şifahi şəkildə onların yerinə yeni dairələrdə üzv təklif etməli olduğumuzu bildirdi", - o vurğulayıb.

Mərkəzi Seçki Komissiyasının son iclasında İ.Məmmədovun xəbəri təsdiqlənib. Belə ki, MSK sədri Məzahir Pənahov rəhbərlik etdiyi iclasda seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsinə dair qərar verilib. MSK sədrinin müavini Rövzət Qasımov bildirib ki, Seçki Məcəlləsinə əsasən, seçki dairələri ölkə üzrə seçicilərin sayının 125-ə bölünməsi yolu ilə formalaşdırılır. Bu məqam nəzərə alınaraq dövrü olaraq yeni seçki məntəqələri yaradılır: "Bu ilin mayından seçki dairələri üzrə seçicilərin orta təmsilçilik normasının yenidən müəyyənləşdirilməsinə ehtiyac yaranıb".

Məzahir Pənahov isə nəzərə çatdırıb ki, seçicilərin orta təmsilçilik norması 41 mindən 50 minə qədər artdığı üçün seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsvirinin yenidən təsdiq edilməsinə ehtiyac yaranıb. MSK sədri bildirib ki, əsasən Bakı, Sumqayıt və Abşeronda seçici sayı çox olduğundan yeni seçki dairələri yaradılır. MSK sədri qeyd edib ki, növbəti mərhələdə dairə seçki komissiyaları yenidən formalaşdırılacaq.

Qeyd edək ki, seçki dairələrinin yenidən formalaşdırılması, bəzi seçki dairələrinin ləğv olunması, yeni seçki dairələrinin yaradılması nəticəsində seçki dairələrinin ümumi sayı dəyişmir. Azərbaycanda yenə ümumilikdə 125 seçki dairəsi olacaq. Bir müddətdir ki, belə rəylər vardı ki, referendumla deputat yerlərinin sayı 150-dək artırılacaq. Amma artıq demək mümkündür ki, parlament seçkilərindən əvvəl referendum olmadı.

AĞ Partiya başqanı Tural Abbaslı proporsional seçki sistemini labüd sayır: "Bilirsiniz, dairələrin adlarının dəyişdirilməsi, məntəqə saylarının artırılması kimi məsələlərin referendum olub-olmamasına aidiyyəti yoxdur. Bu MSK-nın işidir. MSK seçicilərin dairələr üzrə bölüşdürülməsini mütəmadi olaraq dəyişir, yeniləyir. Burada da qeyri-adi bir şey yoxdur. Referendumun olub-olmayacağı bir siyasi qərardır. İlqar Məmmədovun dediyi məsələlər sırf texniki məsələlərdir. Mümkündür ki, səhəri gün referendum elan edib, deputat sayını artırsınlar. Digər tərəfdən, deputatların sayının artırılması dairələrin sayının artırılması deyil ki... Zatən burada proporsional seçki sistemindən söhbət gedir. Məsələn, 50 nəfər proporsional seçkilər yolu ilə müəyyən edilsə, burada dairə sayının artırılmasına ehtiyac qalmır. Gözlənilən odur ki, konstitusiya dəyişikliyindən sonra proporsional seçki sistemi gətirilsin. Məsələn, 25 və ya 50 deputat yeri bu sistemlə artırılacaq. Saylar ya 151, ya da 175-ə qaldırılacaq. O zaman 125 seçki dairəsini dəyişməyə bir ehtiyac qalmayacaq. 125 dairədən majoritar qaydada deputat seçiləcək, ümumi respublika üzrə isə, proporsional qaydadan 25 və ya 50 deputat seçiləcək. Düşünürəm ki, MSK-nın gördüyü işlərdən çıxış edərək, referendumun olmayacağını iddia etmək doğru deyil. Yəni referendum ola bilər. Növbəti parlament seçkiləri qarışıq sistemlə keçirilə bilər. Daha çox siyasi qərarla bu müəyyən edilir. İndidən bu məsələləri qiymətləndirmək tezdir. Bizim də gözləntimiz odur ki, parlamentin tərkibi genişləndirilməlidir. Çünki əhali sayı artıb. Ən azından qarışıq seçki sistemi bərpa olunmalıdır. Proporsional seçki sisteminə keçid labüddür".

Azad Vətən Partiyasının sədri Akif Nağı da referendumdan söz açdı: "Seçki dairələrinin ləğvi deyil, əhatə etdiyi ərazilərin dəyişdirilməsindən söhbət gedə bilər. Bu da əhalinin buradan da seçicilərin sayının artması, buna uyğun yeni kvotaların müəyyənləşdirilməsi ilə bağlıdır. Normal bir prosesdir, burada sensasiya axtarmağa ehtiyac yoxdur. Seçkilər, deputat yerlərinin artırılması, proporsional və majoritar sistemlərin nisbəti və sairlə bağlı xeyli vaxtdır söhbətlər gedir. Məncə, hələ ki vaxt var, referendum keçirilə, dəyişikliklər edilə bilər. İndi seçki dairələrinin sayının saxlanılması ilə bağlı narahatlıqlar haqlıdır. Əgər əhalinin sayı artırsa, Milli Məclisdə təmsilçilik məsələsinə də baxılmalıdır. 10 milyon əhali üçün 125 deputat kifayət deyil. Burada əhalinin daha effektli təmsilçiliyi ön plana çəkilməlidir. Düşünürəm ki, hələ vaxt var, partiya və digər qurumların rəyləri nəzərə alınmaqla referendum keçirilə bilər".

Mərkəzi Seçki Komissiyasının da rəyini aldıq. Qurumun katibi Mikayıl Rəhimov bildirdi ki, dairə seçki komissiyalarının yenidən formalaşması ilə bağlı proseslərdə qeyri-adi heç nə yoxdur. Bilirsiniz ki, DSK-ların bu formada yaradılması hələ 1995-ci ildə konstitusiyamız qəbul olunarkən qəbul olunub və Azərbaycan 125 seçki dairəsinə bölünüb. Seçicilərin dinamik artımı yeni situasiya yaradıb. 800-dən artıq seçki məntəqəsinin yaradılması ilə bağlı MSK qərar qəbul edib. Azərbaycandakı seçicilərin yaşlarına uyğun olaraq, məntəqələr yaradılıb. İndi o məntəqələrin yaradılmasına uyğun olaraq da, dairə seçki komissiyaların cizgilərində onun qrafikini dəyişməyə ehtiyac yaranıb. Bu ehtiyacları da biz Mərkəzi Seçki Komissiyasının sonuncu iclasında həll etdik. İndi seçicilərin orta sayı təxminən 50 min ətrafındadır. Bu baxımdan müxtəlif dairələrdə seçicilərin sayı az olduğuna görə müvafiq məntəqələr digər dairələrə verilib. Bununla 7 seçki dairəsi nəticə etibarilə ləğv olunur. Seçicilər daha çox Abşeron yarmadasına aid olduğuna görə, 7 seçki dairəsi yaradılır. Bununla bağlı MSK qərar verib. İndi onun icrası ilə məşğul olunur. Qarşıda duran vəzifələri həyata keçirmək üçün 125 seçki dairəsində müvafiq qaydada seçki sayına uyğun olaraq, proseslər tənzimlənəcək".

❑ **Cavanşir ABBASLI**
"Yeni Müsavat"

Hansı partiyaların qeydiyyatı yenilənib?

Ədliyyə Nazirliyi siyasi partiyaların dövlət qeydiyyatının yenilənməsi barədə rəsmi bilgi yaymır. Novator.az mediada yayılmış xəbərlərə əsaslanıb bildirir ki, nazirliyə üz tutmuş 26 partiyanın qeydiyyatı yenilənib:

Ağ Partiya, Ana Vətən Partiyası, Azad Vətən Partiyası, Azərbaycan Demokrat Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Azərbaycan Xalq Partiyası, Azərbaycan Xalq Cəbhəsi Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Ümid Partiyası, Böyük Azərbaycan Partiyası, Böyük Quruluş Partiyası, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Demokratik İslahatlar Partiyası, Ədalət Partiyası, Gələcək Azərbaycan Partiyası, Haqq-Ədalət Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Milli Cəbhə Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Müasir Müsavat Partiyası, Müsavat Partiyası, Respublikaçı Alternativ Partiyası, Vəhdət Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Yeni Azərbaycan Partiyası, Yeni Zaman Partiyası.

1992-ci ildən Azərbaycanda siyasi partiyaların fəaliyyətini tənzimləmiş qanun dövlət qeydiyyatı üçün 1000 üzv tələbi qoyub. 2023-cü il yanvarın 11-də qüvvəyə minən yeni qanunla azı 5000 üzvü olan partiya qeydiyyata alına bilər. Dövlət qeydiyyatındakı 59 partiyaya üzvlərinin sayını 5000 nəfərə çatdırmaq, onların reyestrini (siyasi partiya üzvünün adı, soyadı, atasının adı, doğulduğu tarix, qeydiyyat ünvanı, qeydiyyatda olduğu partiyanın yerli təşkilatı (olduğu halda) və əlaqə telefon nömrəsi) hazırlayıb Ədliyyə Nazirliyinə təqdim etmək üçün 180 gün vaxt verilib. Həmin müddət iyulun 10-da başa çatıb.

Yeni tələblə ayaqlaşmağa çətinlik çəkən 32 partiya ələnib, 27-si Ədliyyə Nazirliyinə müraciət edib.

Qanuna görə, dövlət qeydiyyatına alınmış siyasi partiyada üzv sayı 4500-dən aşağı düşdükdə qurum məhkəmə qərarı əsasında ləğv edilə bilər. Partiyanın dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə yol verilmir.

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Bişkek atəşkəsindən Yevlağadək...

1994-cü il mayın 12-də Azərbaycan torpaqlarının işğalına baxmayaraq atəşkəsə razı olmaq zorunda qaldı, 2023-cü il sentyabrın 21-də isə...

Novator.az saytı Qarabağ münaqişəsinin qısa tarixçəsini təqdim edib. Yevlaxdakı dünənki tarixi görüş fonunda Azərbaycanın itirdikləri və qazandıqları tarixinə işıq salan bu statistikanı "Yeni Müsavat" oxucularına təqdim edirik.

1988-ci ilin fevralında Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin (Stepanakert şəhəri, Mardakert, Əsgəran, Martuni, Hadrut, Şuşa rayonları) Ermənistana verilməsi tələbli separatçı hərəkat, təcavüz başlayır.

1989-cu ilin yanvarında Dağlıq Qarabağ birbaşa Moskvaya bağlanır, Xüsusi İdarəetmə Komitəsi yaradılır. Noyabrda Xüsusi İdarəetmə Komitəsi ləğv edilir, dekabrın 1-də Ermənistan parlamentinin və özünü Dağlıq Qarabağ Milli Şurası adlandıran qurumun birgə iclasında vilayətin Ermənistana birləşdirilməsi qərarı çıxarılır.

1990-cı ilin yanvarından Dağlıq Qarabağ Bakının yaratdığı Respublika Təşkilat Komitəsi vasitəsilə idarə olunur.

1991-ci ilin avqustunda sovet imperiyasının dağılması sürətlənir, Azərbaycanın dövlət müstəqilliyi bərpa olunur. Sentyabrda Dağlıq Qarabağ erməniləri bölgəni "müstəqil dövlət" elan edir. İşğalçı rejim Dağlıq Qarabağ Muxtar Vilayətinin və keçmiş Şaumyan kənd rayonunun (Goranboy rayonunun tərkib hissəsi) ərazisində elan olunur. Bunun ardınca müharibə alovlanır, Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı kəndlərin işğalı başlanır.

Noyabrda Azərbaycan parlamenti 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğvinə qərar verir. Stepanakert Xankəndi, Mardakert Ağdərə, Martuni Xocavənd adı alır, Əsgəran və Hadrut rayonları ləğv edilir, Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılır, Əsgəranın ərazisi Xocalı rayonuna, Hadrutun ərazisi Xocavənd rayonuna verilir.

1992-ci il fevralın 26-da Xocalı şəhəri işğal edilir.

Mayın 8-9-da Şuşa şəhəri, sonrakı günlər rayonun qalan ərazisi işğal olunur.

Mayın 17-də Laçın şəhəri işğal olunur, rayon (Qubadlıya yaxın kəndləri çıxmaqla) ermənilərin əlinə keçir.

İyunda keçmiş Şaumyan kənd rayonu erməni işğalından azad edilir.

İyulda Ağdərə şəhəri Azərbaycan qoşunlarının nəzarətinə keçir, sonra rayonun böyük hissəsi azad olunur.

Avqustda parlamentin qərarı ilə Ağdərə rayonunun bir hissəsi Tərtər rayonunun tərkibinə keçir. Oktyabrda Ağdərə rayonu ləğv edilərək Kəlbəcər, Tərtər, Ağdam rayonları arasında bölüşdürülür.

1992-ci ilin yay-payız aylarında Laçın rayonunun Kəlbəcərə yaxın hissəsi azad edilir.

1993-cü ilin fevralından başlayaraq ermənilər keçmiş Ağdərə rayonunun bir hissəsini nəzarətə götürür.

Martın sonundan aprelin 2-dək Kəlbəcər rayonu işğal edilir, Laçın rayonunun Kəlbəcərə yaxın hissəsi yenidən ermənilərin əlinə keçir.

İyunun sonunda ermənilər Ağdərə şəhərini yenidən zəbt edirlər.

İyulda Ağdam şəhəri və rayonun böyük hissəsi, avqustda Füzuli, Cəbrayıl rayonları, Laçının Qubadlıya yaxın kəndləri, Qubadlı rayonu, oktyabrda Zəngilan rayonu işğal edilir.

1994-cü ilin yanvarında Azərbaycan qoşunlarının keçirdiyi əməliyyat zamanı Füzulinin 22 kəndi və 1 qəsəbəsi, Cəbrayılın 1 kəndi azad edilir.

Həmin il mayın 12-də Bişkekdə Azərbaycan atəşkəsə razı olmaq zorunda qalır.

Savaş vaxtı Sədərək rayonunun 1, Qazax rayonunun 7 kəndi də işğal altına düşür.

2016-cı ilin aprelində Azərbaycan Silahlı Qüvvələri Ağdərə, Füzuli və Cəbrayıl istiqamətində bəzi məntəqələri işğaldan azad edir.

2020-ci il sentyabrın 27-dən Azərbaycanın keçirdiyi hərbi əməliyyatlarda Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa şəhərləri, bu rayonların, eləcə də Xocavənd, Xocalı, Laçın rayonlarının və keçmiş Ağdərə rayonunun bir çox məntəqəsi azad olunur.

Noyabrın 10-da Azərbaycan prezidenti, Ermənistanın baş naziri və Rusiya prezidenti birgə bəyanat imzalayır, hərbi əməliyyatlar dayandırılır.

Bunun ardınca Dağ Qarabağa və bölgədən Ermənistana gedən Laçın yoluna Rusiyanın hərbi kontingenti yeridilir.

Ermənistan dekabrın 1-dək Ağdam, Kəlbəcər və Laçın rayonlarını Azərbaycana qaytarır.

Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərləri, Şuşa, Xocalı, Xocavənd rayonlarının və keçmiş Ağdərə rayonunun bir hissəsi özünü "Dağlıq Qarabağ Respublikası" və ya "Artsax Respublikası" adlandıran işğalçı rejimin, Laçın şəhəri və rayonun 6 kəndi Rusiya hərbçilərinin nəzarətində qalır.

2022-ci ilin martında Azərbaycan Ordusu Xocalı rayonunun Fərrux kəndini, avqustun əvvəlində Şuşa-Laçın yolu ətrafındakı bir çox yüksəkliyi nəzarətə götürür. Avqustda Laçın rayonu tam azad edilir.

Azərbaycan hərbçiləri 2021-ci ilin may, 2022-ci ilin sentyabr aylarında Ermənistanla sərhədin Laçın və Kəlbəcər rayonları istiqamətindəki bəzi sahələrini nəzarətə götürür, Ermənistan bunu öz ərazisinə müdaxilə sayır.

2023-cü ilin martında Azərbaycan Ordusu Şuşanın Allahqulular və Zamanpəyəsi kəndlərini nəzarətə götürür.

Apreldə Laçından Yuxarı Qarabağa gedən yolun başlanğıcında, Malxələf kəndi yaxınlığında Azərbaycanın sərhəd-buraxılış məntəqəsi qurulur.

Sentyabrın 19-da Azərbaycan Silahlı Qüvvələri Dağ Qarabağda hərbi əməliyyata başlayır.

Sentyabrın 20-də ermənilər silahı yerə qoymaq, tam şəkildə tərk-silah olmaq öhdəliyi götürür...

"Buna görə Putin Qarabağdakı antiterrora qarşı..."

Azərbaycan Silahlı Qüvvələrinin Qarabağın dağlıq hissəsindəki separatçı-terrorçu rejimə qarşı keçirdiyi son cəmi bir sutkalıq lokal antiterror əməliyyatının gedişi boyu sülhməramlı qüvvələri Qarabağda olan, son 3 ilə yaxın dövrdə separatçı hərbi birləşmələrin silah-sursat toplamasına ciddi dəstək olan Rusiyadan Azərbaycana qarşı bir ciddi səs də çıxmadı.

Həmişə sülh danışıqları ərəfəsində olduğu kimi, heç Ermənistanla sərhəddə də heç bir təxribat-filan baş vermədi. Əksinə, Putinin sözçüsü, "Qarabağdakı vəziyyət Azərbaycanın daxili işidir" deməklə rəsmi Bakıya dolayısı ilə siyasi dəstək verdi. Görəsən, buna səbəb nə oldu?

Moderator.az-ın bu sualını müdafiə nazirinin sabiq müavini, polkovnik Mehman Səlimov qısaca cavablandırıb: "Sülhməramlıları ərazidə olan Rusiya susmağa məcbur oldu. Çünki Kremldəkilər yaxşı anladı ki, əgər indiki şəraitdə Amerika, Fransa məsələyə daha ciddi müdaxilə etsə, Rusiyaya artıq Cənubi Qafqazda yer qalmayacaq. Buna görə də Moskva Azərbaycan Ordusunun öz suveren ərazisindəki işğalçı və qanunsuz silahlı birləşmələrə qarşı antiterror tədbirlərinin əleyhinə cınqırını da çıxarmadı. Paşinyan isə açıq-açığına dedi ki, mən kiməsə görə Azərbaycanla müharibə aparan deyiləm. O da ağıllı addım atdı. Bunlar hamısı hesablanmış gedişlər idi. Onsuz da Paşinyan heç nə edə bilməzdi. O, hakimiyyətdən devrilə bilərdi..."

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Gəlirlər də, xərclər də azalacaq - yeni büdcə

2024-cü il dövlət büdcəsinin ilkin konturları açıqlanıb

Azərbaycanın 2024-cü il dövlət büdcəsinin ilkin konturları açıqlanıb. Maliyyə Nazirliyindən "Yeni Müsavat"a verilən məlumata görə, hökumət neftin bir barelinin orta illik ixrac qiymətini 2024-2027-ci illər üçün 60 ABŞ dollarından hesablamaqla növbəti 4 illik müddət üçün ölkədə mümkün iqtisadi artımı proqnozlaşdırıb.

İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan ssenaridəki makroiqtisadi proqnoz göstəricilərinə əsasən, 2023-cü ildə ölkədə ÜDM-in real ifadədə 1,9 faiz (bu ilin mayında 1,8 faiz) artaraq 119,6 milyard manat, o cümlədən qeyri-neft/qaz ÜDM-in real ifadədə 4,0 faiz artaraq 77,6 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır. 2023-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz azalacağı gözlənilir. Proqnozlara əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft/qaz ÜDM-in həcminin 2024-cü ilin sonuna 84,2 milyard manat, 2027-ci ildə isə 106,8 milyard manata qədər artacağı və real artım tempinin 4,6-5,0 faiz intervalında olacağı gözlənilir.

Neft-qaz sektorunun ÜDM-də payı azalacaq

Hökumətin gözləntilərinə əsasən neft-qaz sektorunun ölkə iqtisadiyyatında xüsusi çəkisinin tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsinin neft sektorundan qeyri-neft/qaz sektoruna transformasiya olunması ilə 2027-ci ildə ÜDM-in tərkibində qeyri-neft/qaz sektorunun payının 78,7 faizə qədər artacaq.

Bu ilin sonunda Azərbaycanda orta illik inflyasiyanın 9,5 faiz, 2024-cü ildə 5,3 faiz olacağı, 2027-ci ildə 4,2 faizə qədər enəcəyi gözlənilir. Həmçinin İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2024-2027-ci illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi 1,7 manat səviyyəsində götürülüb. İnflyasiya mühitinin tənzimlənməsi ilə bağlı atılan addımlar iqtisadi fəallığın artımı ilə yanaşı əhalinin sosial rifahına da müsbət təsir edəcəkdir. Proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2027-ci ildə 106,0 milyard manata, xərclərinin isə 102,6 milyard manata qədər yüksəlməsi gözlənilir.

Hökumət 2023-cü ildə əsas kapitala olan investisiyalarda 7,7 faiz, ortamüddətli dövrdə isə orta illik 1,6 faiz artım proqnozlaşdırır. Sənəddə qeyd olunur ki, qarşıdakı illərdə neft-qaz sektoruna investisiyalarda azalma, digər sahələrdə isə artım müşahidə ediləcək. Belə ki, digər sahələr üzrə investisiyalar 2023-cü ildə 13,4 milyard manat proqnozlaşdırıldığı halda, 2027-ci ildə 16,9 milyard manata yüksələcək.

Yaxın 3 ildə Azərbaycan hökuməti daxildə borclanmanı artırmaq, xarici borclanmanı müəyyən olunan həddə daxilində saxlamaq niyyətindədir. Bununla yanaşı, enerji və nəqliyyat sektoru, özünüməşğulluq və sosial müdafiənin gücləndirilməsi, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, su təchizatı və kanalizasiya şəbəkələrinin yenidən qurulması üzrə layihələrin maliyyələşdirilməsi üçün beynəlxalq maliyyə institutlarından xarici borcun cəlb edilməsi nəzərdə tutulur. 2027-ci ilin sonuna xarici dövlət borcunun 5,4 milyard ABŞ dolları və ya ÜDM-in 6,8 faizi həcmində olacağı proqnozlaşdırılır. 2024-2027-ci illər ərzində dövlət büdcəsi kəsirinin maliyyələşdirilməsi məqsədilə emissiya olunacaq yeni dövlət istiqrazları, o cümlədən Aqrarkredit QSC-nin dövlət zəmanətli öhdəliklərinin dövlət borcu kimi təsnifləşdirilməsi nəticəsində daxili dövlət borcunun 2027-ci ilin sonunda 22,2 milyard manat və ya ÜDM-in 16,4 həcmində qərarlaşacağı gözlənilir. Belə olan halda, 2027-ci ilin sonunda ümumi dövlət borcunun 31,4 milyard manat və ya ÜDM-in 23,2 faizi həcmində olacağı proqnozlaşdırılır.

2024-cü ildə bir sıra kateqoriyalara vergi güzəştləri tətbiq olunacaq. O cümlədən bəzi kateqoriyalı fiziki şəxslərə verilən güzəştlərin həcminin artırılması və bir sıra gəlirlərinin vergiyə cəlb olunan gəlir bazasına aid edilməməsi; Sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi: Maliyyə lizinqinin vergiyə cəlb edilməsi mexanizminin sadələşdirilməsi, ictimai və sosial məqsədlər üçün ödənilən vəsaitlər üzrə mənfəət vergisindən azad olan hissənin artırılması, bir sıra təsərrüfat sahələri üzrə mülkiyyət vergiləri üzrə əlavə güzəştlərin verilməsi planlaşdırılır.

Bununla yanaşı, tütün məmulatları və alkoqollu içkilər üzrə aksiz dərəcələrinin artırılması nəzərdə tutulur.

Büdcə gəlirləri 0,4 faiz, xərcləri isə 0,7 faiz azalacaq

2024-cü ildə dövlət büdcəsinin gəlirləri 33 milyard 765,0 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin dürüstləşdirilmiş göstəricisi ilə müqayisədə 125,5 milyon manat və yaxud 0,4 faiz azdır. Növbəti ildə dövlət büdcəsinin xərcləri 2023-cü ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 269,8 milyon manat və ya 0,7 faiz azalma ilə 36 milyard 355 milyon manat proqnozlaşdırılır. 2024-cü ildə dövlət büdcəsinin kəsiri 2023-cü ilin dürüstləşdirilmiş proqnozu ilə müqayisədə 144,3 milyon manat və ya 5,3 faiz az olmaqla 2 milyard 590 milyon manat proqnozlaşdırılır.

Dövlət büdcəsinin gəlirləri 2024-cü ildə xam neftin bir barelinin orta illik ixrac qiyməti 60 ABŞ dolları səviyyəsində götürülməklə hesablanıb. Gəlirlərin 49,6 faizi və ya 16 milyard 756,0 milyon manatı neft sektorunun, 50,4 faizi və ya 17 milyard 9,0 milyon manatı qeyri-neft/qaz sektorunun payına düşəcək.

Gələn il Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar dövlət büdcəsi gəlirlərinin 41,1 faizini və ya 13 milyard 865,0 milyon manat təşkil edəcək ki, bu da cari ilin dürüstləşdirilmiş proqnozundan 1 milyard 122,0 milyon manat və ya 7,5 faiz azdır. Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin həcmi 12 milyard 781,0 milyon manat və ya ümumi büdcə gəlirlərinin 37,9 faizi həcmində olacaq.

Bundan əlavə, büdcə gəlirlərinin 5,9 milyard manatı və ya 17,5 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 831,0 milyon manatı və ya 2,5 faizi büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 388,0 milyon manatı və ya 1,2 faizi isə sair gəlirlərin payına düşəcək.

2024-cü ildə neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin 76,3 faizini və ya 12 milyard 781,0 milyon manatını Dövlət Neft Fondundan transfert, 23,7 faizini və ya 3 milyard 975,0 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edəcək. Növbəti ildə qeyri-neft/qaz sektoru üzrə dövlət büdcəsi gəlirlərinin 58,1 faizini vergi orqanlarının xətti ilə daxilolmalar, 34,7 faizini gömrük orqanlarının xətti ilə daxilolmalar, 4,9 faizini büdcədən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən büdcədənkənar fondlara daxilolmalar, 2,3 faizini sair gəlirlər təşkil edəcək

2024-cü il üzrə dövlət büdcəsinə proqnozlaşdırılan Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların 71,3 faizi və ya 9 milyard 890,0 milyon manatı qeyri-neft sektorunun, 28,7 faizi və ya 3 milyard 975,0 milyon manatı neft sektorunun payına düşəcək.

2024-cü il üçün 36355,0 milyon manat (ÜDM-in 30,7 faizi) həcmində proqnozlaşdırılan dövlət büdcəsi xərclərinin 22 milyard 622,0 milyon manatı və ya 62,2 faizi cari xərclərə, 11 milyard 760,4 milyon manatı və ya 32,3 faizi əsaslı xərclərə, 1 milyard 972,6 milyon manatı və ya 5,4 faizi dövlət borcu və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldiləcək.

Funksional təsnifat üzrə 2024-cü ildə iqtisadi fəaliyyət xərclərinə 7 milyard 380,0 milyon manat (xüsusi çəkisi 20,3 faiz), ümumi dövlət xidmətləri üzrə xərclərə 4 milyard 814,9 milyon manat (xüsusi çəkisi 13,2 faiz), müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 6 milyard 421,0 milyon manat (xüsusi çəkisi 17,7 faiz), səhiyyə xərclərinə 1 milyard 871,3 milyon manat (xüsusi çəkisi 5,2 faiz), sosial müdafiə və sosial təminat üzrə xərclərinə 4 milyard 542,2 milyon manat (xüsusi çəkisi 12,5 faiz), məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq üzrə xərclərinə 2 milyard 956,7 milyon manat (xüsusi çəkisi 8,1 faiz), mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə 574,8 milyon manat (xüsusi çəkisi 1,6 faiz), əsas bölmələrə aid edilməyən xidmətlər üzrə xərclərinə 1 milyard 392,7 milyon manat (xüsusi çəkisi 3,8 faiz), mənzil və kommunal təsərrüfatı üzrə xərclərinə isə 364,8 milyon manat (xüsusi çəkisi 1,0 faiz) vəsait yönəldilməsi proqnozlaşdırılır.

Gələn il dövlət büdcəsindən təhsil bölməsi üzrə 102 tədbiri əhatə edən 10 proqramın həyata keçirilməsi üçün 4 milyard 549,9 milyon manat (xüsusi çəkisi 12,5 faiz) məbləğində vəsaitin yönələcəyi proqnozlaşdırılıb.

Kənd təsərrüfatı bölməsi üzrə 40 tədbiri əhatə edən 7 proqramın həyata keçirilməsi üçünsə 1 milyard 109,9 milyon manat (xüsusi çəkisi 3,1 faiz), ətraf mühitin mühafizəsi bölməsi üzrə isə 37 tədbiri əhatə edən 6 proqramın həyata keçirilməsi üçün 376,8 milyon manat (xüsusi çəkisi 1,0 faiz) ayrılması nəzərdə tutulur.

Gələn il dövlət büdcəsinin kəsiri 2 milyard 590,0 milyon manat proqnozlaşdırılır ki, bunun da 1 milyard 854,4 milyon manatının (71,6 faiz) borclanma, 448,0 milyon manatının (17,3 faiz) 2024-cü ilin əvvəlinə ehtimal edilən vahid xəzinə hesabının qalığı, 105,0 milyon manatının (4,1 faiz) özəlləşmədən daxilolmalar və 182,6 milyon manatının (7,1 faiz) "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin qalığı (həmin fondun kəsirinin bağlanması daxilində) hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 169 (8305) 22 sentyabr 2023

Universitetlərin akkreditasiyası - formal təsdiqləmə, yoxsa...

Bu akkreditasiya hansı prinsiplər əsasında aparılır, təhlillər nə qədər obyektiv hesab olunur?

Elm və Təhsil Nazirliyinin Akkreditasiya Şurası Memarlıq və İnşaat Universiteti, Xəzər Universiteti və Lənkəran Dövlət Universitetinə növbəti 5 il müddətinə akkreditasiya olunması barədə qərar verib. Bakı Dövlət Universitetinin Qazax filialı və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialının institusional akkreditasiya nəticələri isə "uyğun deyildir" hesab edilərək qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 ilədək uzadılması və sözügedən təhsil müəssisələrinin 1 ildən sonra təkrar akkreditasiya edilməsi qərara alınıb.

Bu akkreditasiya əsasən hansı prinsiplər əsasında aparılır, təhlillər nə qədər obyektiv hesab olunur? 5 ildən bir keçirilən formal proseduradır, yoxsa hansısısa real nəticələri var? Xüsusilə filiallarla bağlı cəmiyyətdə heç vaxt təhsilin səviyyəsinə görə birmənalı rəy yoxdur, çoxları hətta rüşvət mənbəyi hesab edirlər.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, təhsil tədqiqatçısı Elmin Nuri mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, Azərbaycanda ali təhsil müəssisələrinin akkreditasiyası 7 istiqamət, 30 meyar və 271 indikator üzrə aparılır: "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin rəhbəri Ülkər Səttarova da bir müddət öncə bununla bağlı edərək, akkreditasiya şərtlərini açıqlamışdı. Bu meyarların arasında ali təhsil müəssisəsinin tədris prosesi, elmi tədqiqat fəaliyyəti, maddi-texniki bazasının hansı səviyyədə olması, idarəetmə, beynəlxalq əlaqələr kimi və s. məsələlər yoxlanılır. Bizdə universitetlərin akkreditasiyasının vahid rəsmi qurum və peşəkar ekspertlər tərəfindən aparılması çox təqdirəlayiq haldır. Belə ki, dünya təcrübəsində bunun əksi olan məqamlar var. Xüsusən də Avropada ali təhsil müəssisələrinin keyfiyyət qiymətləndirilməsi və akkreditasiyası prinsipləri bu işlə məşğul olan özəl agentliklər tərəfindən aparılır.

Avropa ölkələrində ali təhsildə akkreditasiya prosesi sərbəst təşkilatlar tərəfindən həyata keçirilir və əsas etibarilə təhsil proqramının və ya təhsil müəssisəsinin onlar tərəfindən müəyyən edilmiş standarta uyğun olub-olmamasına cavab almaq məqsədilə aparılır. Bu zaman akkreditasiya təşkilatı tələbələrin, valideynlərin, əmək bazarının üzvlərinin, təhsil cəmiyyətinin və nəhayət, dövlətin maraqlarını və hüquqlarını qoruyur. Ona görə də akkreditasiya agentlikləri Avropada, o cümlədən Almaniyada sərbəst təşkilat olsalar da, bu təşkilatların, agentliklərin fəaliyyətinə lisenziya verilməsi, onların fəaliyyətinə nəzarət dövlətin, yəni Elm və Təhsil Nazirliyinin səlahiyyətində qalır. Həmin agentliklərin fəaliyyəti üçün standartları Elm və Təhsil Nazirliyi müəyyən edir. Avropada akkreditasiya prosesi zamanı əsas rolu Avropa Universitetlər Assosiasiyası, Ali Məktəblərdə Keyfiyyətin təminatı üzrə Avropa Şəbəkəsi, Avropa Komissiyası, Avropa Milli Tələbə İttifaqı və s. kimi təşkilatlar oynayır".

Tədqiqatçı hesab edir ki, təhsil islahatlarının başlanğıcında olduğumuz üçün bizdə hələlik bu işlə məşğul olan özəl agentliklər, təsisatlar yoxdur: "Açığı, şəffaflıq rakursundan olmaması daha məsləhətdir. Təsəvvür edin, ABŞ kimi nəhəng təhsil ölkəsində bu iş yalnız dövlət qurumu tərəfindən həyata keçirilir. Azərbaycanda universitetlərin akkreditasiyası prosesi 5 ildən bir keçirilir. Amma çağdaş dünyanın təhsil tələbləri elə sürətlə dəyişir ki, akkreditasiyadan keçmiş universitetin gələcək 5 ilə nə dərəcədə hazırlıqlı olduğunu demək mümkün deyil. Ona görə də TKTA tərəfindən tələb edilən prinsip və meyarlarda universitetdən qarşıdakı 5 il üçün strateji plan istənilməli və o dünya təhsilinin gələcək inkişafı paradiqmasından dəyərləndirilməlidir. Amma belə görünür ki, bu prinsip tələb olunmur. Çünki universitetlərimiz demək olar ki, gələcək üçün strateji plan, inkişaf xarakterli yol xəritəsi hazırlamırlar. Amma demək olar, hamısı akkreditasiyadan da keçmiş hesab edilirlər".

Elmin Nuri əlavə edib ki, universitet-əmək bazarı ikilisi yoxlamalar zamanı incələnməlidir: "Doğrudanmı, universitetlərimizdə bütün ixtisaslar üzrə hazırlanan kadrlar sonradan əmək bazarında öz yerini tapa bilir? Axı bu istiqamətdə problemlər çoxdur. Bu gün bir çox universitetlərdə xeyli ixtisaslar var ki, onlar çağdaş əmək bazarı üçün ümumiyyətlə maraqlı deyillər. Bu kimi ixtisaslar tədrisdən çıxarılmalı, yerinə çağdaş dünyanın əmək bazarında güclənməkdə olan yeni ixtisaslar gətirilməlidir. Akkreditasiya zamanı belə meyarlara mütləq diqqət yetirilməlidir".

Təhsil eksperti Kamran Əsədov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini açıqladı. Ekspert dedi ki, hazırda ölkədə 51 ali təhsil müəssisəsi fəaliyyət göstərir və bu müəssisələrdə ümumilikdə 187 min tələbə təhsil alır: "Bu gün Azərbaycan universitetləri müasir dövrün tələblərinə və əmək bazarının çağırışlarına cavab verən kadr hazırlığı həyata keçirə bilmir. Həyata keçirilən akkreditasiyanı yarımçıq hesab edirəm. Hazırda mövcud akkreditasiya yalnız kağız üzərində müəyyən meyarları yoxlamaq üçündür. Biz heç bir universitetdə gələcəklə bağlı universitet tərəfindən qəbul edilmiş strateji planı görə bilmirik. TKTA gəlib universitetlərin maddi-texniki bazasını ümumi halda yoxlayıb gedir. Hətta bu qurumun əməkdaşlarının özünün bu sahədə təcrübəsi yetərli deyil. Ölkəmizdəki universitetlərin heç bir universitet "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar"a (ESG) uyğun deyil. Universitetlərin məzunlarının əmək bazarında iş tapma imkanları çox aşağıdır. Elektron kitabxanalar demək olar ki, yoxdur. Bütün bunlara rəğmən TİKTA necə bu universitetləri akkreditasiyadan keçmiş kimi qəbul edir?

Tələbələrə yüksək təhsil verildiyi zaman təhsil haqqı məbləğinin yüksək olmasından söhbət gedə bilər. Əks halda, verilən təhsillə universitet tərəfindən alınan ödəniş üst-üstə düşmür. Yerli ali təhsil müəssisələri arasında Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı Ali Neft Məktəbi, ADA, Xəzər Universiteti kimi universitetlər istisna olmaqla, digər ali təhsil müəssisələrində tədrisin keyfiyyəti elədə yüksək deyil. Bu səbəblə də təhsil haqqının yüksək olmasını doğru hesab etmirəm. Bildiyimiz kimi, hazırda ölkəmizdə 146 min ödənişli əsaslarla təhsil alan tələbə var. Onların 98 430 bakalavr, 12 050 magistratura, 35 892 nəfər isə subbakalavr pilləsi üzrə təhsil alır. Bu tələbələrin böyük əksəriyyəti təhsil haqqını ödəməkdə çətinlik çəkir. Bu zaman təbii ki, tələbələr təhsil kredit fonduna müraciət edirlər. Amma bəzən elə hallar da olur ki, tələbələr təhsil haqqını ödəyə bilməyib universiteti yarımçıq saxlayırlar".

Ekspert əlavə edib ki, təhsil haqqı, universitetin yataqxanası, laboratoriyası, kitabxanası və verdiyi təhsil keyfiyyəti diqqətə alınaraq formalaşmalıdır: "Sözügedən amillərin istənilən səviyyədə olmadığı halda, təhsil haqlarının ildən-ilə artması düzgün yanaşma deyil. Kifayət qədər nüfuzlu universitetlər var ki, onların təhsil haqları bizim ölkəmizdəki bəzi ali təhsil müəssisələrinin təhsil haqları ilə bərabərdir. Halbuki təhsil səviyyəsinə görə onları müqayisə etmək belə düzgün deyil. Biz xarici təcrübəyə baxsaq, Avropada olan universitetlərin təhsil haqlarının bizim bəzi universitetlərimizdən dəfələrlə aşağı olduğunu müşahidə edərik. Hollanda, Belçika, Fransa, İtaliya kimi ölkələrdə təhsil haqqı vətəndaşların sosial vəziyyətinə uyğun müəyyənləşdirilir. Həmin universitetlər dünya sıralamasında ilk əllilikdə yerləşir. Bu da öz növbəsində təhsilin keyfiyyətinin yüksək olmasının göstəricisidir".

❑ Afaq MİRAYİQ,
"Yeni Müsavat"



Xaricdə təhsil alanlar imtahan verəcəklər

Dövlət İmtahan Mərkəzi 1 oktyabr 2023-cü il tarixində xarici dövlətlərdə ali təhsil almış şəxslər üçün peşə tanınması üzrə növbəti imtahan keçiriləcək. Bu barədə DİM-dən xəbər verilib.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 fevral tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"nın 6.2-ci bəndinə əsasən müəllimlik, mühəndislik və hüquq ixtisasları üzrə ərizəçinin Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin sifarişi ilə Dövlət İmtahan Mərkəzinin (DİM) təşkil etdiyi sınaq imtahanında müvəffəqiyyət qazanması (keçid balının toplanması) tələb olunur.

İmtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı agentliklə razılaşdırılmaqla DİM tərəfindən müəyyənləşdirilir. Ərizəçilər ixtisasları üzrə proqramla müvafiq linklərə ("Müəllimlik", "Mühəndislik", "Hüquq") keçid etməklə tanış ola bilərlər.

Təqdim edilən proqram üzrə ərizəçilərin ixtisas biliklərinin yoxlanılması ilə yanaşı, onların ümumpeşə biliklərinin müəyyən edilməsi və situasiya-mühakimə test tapşırıqları vasitəsilə davranış səriştələrinin qiymətləndirilməsi də nəzərdə tutulur.

İmtahanda iştirakçılara 30 test tapşırığı təqdim olunacaq. Hər doğru cavab bir balla, səhv və ya cavab verilməyən tapşırıqlar sıfır balla qiymətləndirilir. Ərizəçinin imtahanda müvəffəqiyyət qazanması üçün ən azı 15 bal toplaması tələb olunur.

İmtahan 1 oktyabr 2023-cü il tarixində Dövlət İmtahan Mərkəzinin Nəsimi rayonu, Abdulvahab Salamzadə küçəsi, 28 ünvanında yerləşən binasında (8 Noyabr metrostansiyasının yanı) kompüter vasitəsilə keçiriləcək.

Qeyd edək ki, imtahanda iştirak edəcək ərizəçilərə Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən müvafiq məlumat verilir.

YENİ MÜSAVAT

Son səhifə

N 169 (8305) 22 sentyabr 2023

Evdə saxladığı canavar sahibinə hücum etdi

Buryatiyada (Rusiya) yerli sakinə ev heyvanı kimi saxladığı canavar hücum edib. Bu barədə Buryatiya Daxili İşlər Nazirliyinin Mətbuat Xidməti məlumat verib. "Polisə 49 yaşlı Baqdarin kənd sakinindən məlumat daxil olub.

Kişi ilyarım əvvəl meşədən evə gətirdiyi canavarın qəfəsdən çıxdığını bildirib", - deyə Buryatiya Daxili İşlər Nazirliyi bildirib. Canavar özünü aqressiv aparıb, sahibinə hücum edib və bir neçə dəfə onu dişləyib. Hüquq-mühafizə orqanlarının əməkdaşları hadisə yerinə gediblər. Polislər heyvanı yenidən volyerə salmağa çalışıblar. Nəticədə polis xidməti silahından istifadə edərək yırtıcıya atəş açmalı olub.

Daxili İşlər Nazirliyindən bildirilib ki, faktla bağlı daxili yoxlama təyin edilib. İlkin olaraq silahdan istifadə qanuni hesab olunub.

Pentaqondan xəbərdarlıq: "Yadplanetli gəmi Yerə yaxınlaşır..."

ABŞ-ın NBC televiziya şirkəti yadplanetli gəminin Yer kürəsinə yaxınlaşması barədə xəbərdarlıq edən reportajın anonsunu verib. Bu barədə "Nightly News" verilişinin aparıcısı Lester Holt Pentaqonun ekspertinə istinadən məlumat yayıb. UNO-lar haqqında reportaj "60 Saniyə" adlanır. Burada Pentaqon eksperti yadplanetlilərin əsas gəmisinin Yerə yaxınlaşa biləcəyini açıqlayıb.

Zambiyada dünyanın ən qədim taxta konstruksiyası aşkar edilib

Böyük Britaniyadan olan arxeoloqlar Tanqanika gölünün şərq sahilində yaşı azı 476 min il olan ən qədim taxta tikili aşkar ediblər. Liverpul Universitetinin Mətbuat Xidmətinin yaydığı məlumata görə, bu, onu deməyə əsas verir ki, əcdadlarımız hələ Homo sapiensin yaranmasından əvvəl tikinti üçün ağacdan istifadə etməyə başlayıblar. "Bu kəşf mənim ilk əcdadlarımız haqqında düşüncələrimi kökündən dəyişdi. İndi qədim insanların taxtadan böyük tikililər tikməyi bacardığını nəzərə alsaq, "Daş dövrü" ifadəsini unutmalıyıq", - deyə universitetin mətbuat xidmətindən sitat gətirən Liverpul Universitetinin professoru Larri Barham bildirib.

Misirdə Afroditanın məbədi və unikal xəzinə tapılıb

Misir sahillərində Afroditanın batmış məbədi aşkar edilib. Bu barədə ölkənin Turizm və Qədim Əsərlər Nazirliyi xəbər yayıb. Bildirilir ki, Misir və Fransadan olan beynəlxalq arxeoloqlar qrupu İsgəndəriyyə yaxınlığında suyun altında qalan qədim yunan gözəllik, sevgi və məhsuldarlıq ilahəsinə həsr olunmuş məbəd tapıblar.

Bildirilir ki, məbəd Əbu Kir körfəzində batmış qədim Heraklion şəhərində sualtı qazıntılar zamanı aşkar edilib və eramızdan əvvəl 5-ci əsrə aiddir. Məbədin içərisində Yunanıstandan gətirilmiş tunc və keramika əşyalar tapılıb. Qeyd edilib ki, eramızdan əvvəl 8-ci əsrdə inşa edilən Heraklion e.ə. 331-ci ildə İsgəndəriyyə tikilənə qədər Qədim Misirin ən böyük ticarət mərkəzi və limanı olub. Şəhər təxminən 1200 il əvvəl su altında qalıb.

Onun xarabalıqları 45 metrə qədər müxtəlif dərinliklərdə yerləşir. Heraklion arxeoloqlar tərəfindən kəşf edildiyi gündən (2006-cı il) sualtı muzey hesab edilir.

Gecə az yatan insanların üzləşdiyi aqibət

Gecə normal yatmayanlar və yuxusuzluq problemi olanlar qəzəbli və hirsli olur. Tədqiqatçılar bir ay ərzində 202 kollec tələbəsinin gündəlik qeydlərini təhlil ediblər. İlkin nəticələr göstərib ki, insanlar adi haldan daha az yatdıqdan sonrakı günlərdə daha çox qəzəb yaşadıqlarını bildiriblər. Yaxşı yuxu - daha az qəzəb və hirs deməkdir. Təcrübə göstərib ki, yaxşı yatan insanlar iki gündən sonra səs-küyə uyğunlaşır və daha az əsəbiləşirlər. Bunun əksinə olaraq, yuxusu məhdud olan insanlar səs-küyə cavab olaraq qəzəb nümayiş etdirirlər.

Elmi araşdırmalar yuxu məhdudiyyətinin qəzəbi və zamanla məyusluğu artırdığına dair güclü sübutlar təqdim edir.

Mütəxəssislər qəzəb və hirsi beyində parazitlərin olması ilə əlaqələndirirlər.

Belə insanların bir çoxunun toksiplazmaya yoluxduğu ortaya çıxıb".

Bunları bilirsizmi?

*** Su samurları əl-ələ tutuşaraq yatırlar.**

*** Leonardo Da Vinci eyni anda bir əli ilə yazı yaza, digəri ilə rəsm çəkə bilirdi.**

*** Pendir və qara şokolad dişlərin çürüməsinin qarşısını alır.**

*** Dünyanın ən zəngin 3 ailəsi ən yoxsul 48 ölkənin ümumi sərvətindən daha çox var-dövlətə sahibdir.**

*** Dünyanın ən uzun tıxacı 12 gün davam edib. 100 km-lik maşın tıxacında avtomobillər gündə 1 km gedə biliblər.**

*** Everestdə 200-dən çox alpinist meyiti var.**

*** Dünyadakı insanların 2/3-i heç qar görməyib.**

*** Bir insan həyatı boyu dünyanın ətrafını 3 dəfə dolanacaq qədər piyada gəzir.**

*** Çox sərt asqırsanız, qabırğanız qırıla bilər.**

*** Qarda gizlənən qütb ayısı qara burnunu pəncəsi ilə örtür.**

*** Yatarkən televizora baxdığınızdan iki dəfə çox kalori yandırırsız.**

*** İnsan uzun müddət bir böyrək, ağciyərlər, mədə və dalaqsız yaşaya bilər. Amma qaraciyər olmadan bir an belə yaşamaz.**

*** Birinci Dünya savaşında Fransa ölkədəki bütün taksiləri müsadirə edərək hərbçiləri cəbhəyə daşıyıb.**

*** İnsan ildə azı 1460 yuxu görür.**

*** Timsahlar daha dərinə batmaq üçün daş udurlar.**

*** Çində ingilis dilində danışanların sayı Amerikadan çoxdur.**

*** İnsan oksigensiz 3 dəqiqə, ekstremal hava şəraitində sığınacaqsız 3 saat, susuz 3 gün, yeməksiz isə 3 həftə sağ qala bilər.**

*** İnsanın çanaq sümüyü betondan daha möhkəmdir.**

*** 2011-ci ildə Yaponiyada minlərlə insanın ölümünə səbəb olan zələlə və sunamidən sonra günlər qısalıb - 1.8 mikrosaniyə.**

*** Xarab olmayan yeganə qida baldır.**

*** Qarışqalar su altında 2 həftə qala bilərlər.**

*** İnsan nəfəsi -90 dərəcədə donur.**

*** Həşərat dərmanları əslində onları öldürmür. Sadəcə onların "ötürücülərini" blok edir . Yəni insanlar onlar üçün görünməz olur.**

*** Ancaq Saman yolu qalaktikasında 400 milyarddan çox ulduz var.**

*** İnsan bir gündə ən azı 28 min litr hava, 500 litr oksigen istifadə edir.**

*** Hər gün 275 milyon yeni ulduz doğulur.**

*** Hər gözümüzdə 130 milyon sinir hüceyrəsi var. Hər bir hüceyrədə isə 100 trilyon atom olduğu düşünülür. Bu isə kainatdakı ulduzlardan belə çoxdur.**

Qadın sonsuzluğunun yeni müalicə üsulu kəşf edildi

"İnternational Journal of Molecular Sciences"da polikistik yumurtalıq sindromu ilə əlaqəli olan qadın sonsuzluğu ilə mübarizədə yenilikçi dərman haqqında danışılıb. ABŞ alimlərinin hazırladığı bu vasitə kök hüceyrələrə əsaslanır.

Tədqiqat siçanlar üzərində aparılıb və bütün təcrübələr yumurtalıqların reproduktiv qabiliyyətini bərpa edib. Polikistik yumurtalıq sindromu bir sıra xoşagəlməz əlamətlərlə müşayiət olunan çətin müalicə olunan bir xəstəlik hesab olunur.

Bu qida Alsgeymerin qənimidir



Alimlər Alsgeymerə qarşı sarı pendirin təsirini araşdırıb və koqnitiv funksiyaları yaxşılaşdırdığını müəyyən edib. Cənubi Koreya alimləri yaşlı insanlar üzərində təcrübə aparıblar. Tədqiqatda 1516 nəfər 65 yaşdan yuxarı yapon iştirak edib. İlk növbədə alimlər onların rasionunu təhlil edib və kimin çox pendir yediyini müəyyən edib. Məlum olub ki, gündəlik menyusunda pendir olan yaponların yaddaşı və diqqəti daha yaxşıdır və olduqları yeri yaxşı qavrayır, azmırlar. Pendir yeyənlərin digər sağlamlıq göstəriciləri də digərlərindən yaxşı olub. Ona görə də alimlər 50 yaşdan sonra bərk pendir növlərini menyuya daxil etməyi israrla bildirir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 2437

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.